**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**AĞAYEV ELMAR VAHİD oğlu**

# ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ QARABAĞ ZONASINDA DAĞIDILMIŞ, MƏHV OLMUŞ ABİDƏLƏR mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın adı:** Regionşünaslıq (Qafqaz üzrə)
**Elmi rəhbər:** prof. Abbasova Mehriban Əbdülhəlim qızı

**BAKI-2022**

# MÜNDƏRİCAT

**GİRİŞ................................................................................................................ 3**

**I FƏSİL. ERMƏNİ İŞĞALINDAN ÖNCƏ QARABAĞIN İLKİN COĞRAFİ, İQTİSADİ VƏ MƏDƏNİ DURUMU...............................................................6**

**1.1. İşğaldan öncə Qarabağın coğrafi-iqtisadi vəziyyəti....................................6**

**1.2. İşğaldan öncə Qarabağın əhalisi və etnik tərkibi......................................15**

**1.3. İşğaldan öncə Qarabağın tarixi-mədəni irsi.............................................19**

**II FƏSİL. ERMƏNİ İŞĞALI NƏTİCƏSİNDƏ ÖLKƏMİZƏ VƏ XÜSUSİLƏ QARABAĞA DƏYMİŞ MADDİ-MƏNƏVİ ZİYANLAR...............................23**

**2.1. İşğal nəticəsində əhaliyə dəymiş maddi-mənəvi ziyanlar, etnik təmizləmə.........................................................................................................23**

**2.2. İşğal nəticəsində Qarabağın dağılmış və talan olunmuş tarixi-mədəni irsi.......................................................................................................................24**

**III FƏSİL. ERMƏNİ İŞĞALININ BEYNƏLXALQ ARENADA TANINMASI VƏ BEYNƏLXALQ HÜQUQDA QİYMƏTLƏNDİRİLMƏSİ.......................46**

**3.1. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri.....................................................................................................46**

**3.2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Qarabağ münaqişəsi.......................................................................................................49**

**3.3. Dəmir yumruq əməliyyatı, Qarabağa qayıdış və zəfərdən sonra Qarabağın inkişaf perspektivləri..................................................................54**

**NƏTİCƏ...........................................................................................................65**

**ƏDƏBİYYAT SİYAHISI..................................................................................67**

# GİRİŞ

Qarabağ dünyaya, Qarabağ mədəniyyət adı ilə böyük maddi və mənəvi mədəniyyət bəxş etmiş, Azərbaycanın bol sərvətə, mülayim iqlimə, zəngin bitki və heyvanat aləminə malik tarixi etnoqrafik əyalətidir. Aralıq dənizi ətrafı və Şimali Afrika ilə birlikdə bəşəriyyətin ulu əcdadlarının mövcud olduğu zonaya Qarabağ da daxil edilir. Kür və Araz çaylarının arasında olan Qarabağda həyat qədim daş dövründən başlayaraq fasiləsiz davam etmişdir. Bunu ölkə ərazisində ən qədim insan düşərgəsi olan Azıx mağarasında aşkar edilmiş mədəniyyət nümunələri (ilk insanın alt çənə sümüyü) sübut etmişdir. Burada sosial varlıq kimi formalaşan insan nəsli ictimai əmək prosesində yığıçılıq və ovçuluqla güzəran keçirmiş, sonralar topladığı dənli bitkiləri əkməyə, ovladığı heyvanları əhilləşdirin saxlamağa artırmağa başlamışdır.

Qarabağdakı əhali qəbilələrdə artdıqca, tələbata istehsal cavab vermişdir. Təərrüfatda ictimai əmək bölgüsü baş verir və ixtisaslaşma gedir, maldarlıq əkinçilikdən ayrılır. Maldarlar qışlaq və yaylaq otlaqlarında istifadə etməyə başlayırlar.

Burada etnik, mədəni-ideoloji xüsusiyyətlər kəsb edən adət və ənənələr, özünəməxsus ədəbi folklor, məktəb təşəkkül tapır. Qarabağ bütün Şərqdə məşhur olan musiqi beşiyinə çevrilir.

Təbiət Qarabağ torpağına bol sərvət, onun adamlarına məğrurluq, dərin səmimilik, sədaqət bəxş etməyi unutmadığı kimi, sanki qonşu xəyanəti payını da ondan əsirgəməmişdir. Əlverişli təbii coğrafi mövqeyinə, zəngin təbii sərvətlərinə görə Şərq və Qərb işğalçılarının tarixən göz dikdiyi Qarabağı asılı etmək niyyətinə düşənlər bu xəyanət bolloğundan vaxtaşırı əziyyət çəkmədən istifadə etmişlər. Xalqımıza qarşı onların etdikləri ən böyük xəyanət ərəb işğalı zamanı olmuşdur. Ermənilər o zaman ərəblərə bələdçilik etmişdirlər. Özləri Azərbaycanda möhkəmlənmək üçün Alban kilsəsini qriqorian kilsəsi etməyə cəhd göstərmişdirlər.

**Aktuallıq:** Bu gün tarixən erməni təcavüzünün qurbanı olmuş dini-mədəni abidələrimizin ümumi sayını müəyyənləşdirmək üçün araşdırmalar aparılır. XIX əsrdən etibarən Qarabağa və Qərbi Azərbaycan ərazilərinə köçürülən ermənilər müxtəlif vaxtlarda, amma mərhələlərlə öncə azərbaycanlıların torpaqlarını, sonra da orada yaşayan soydaşlarımızı, daha sonra abidələrimizi təcavüzə məruz qoymuşlar. XX əsrin əvvəllərində, 1905, 1918-ci illərdə bu təcavüz prosesi baş vermiş və 1988- ci ildən etibarən özünün kulminasiya nöqtəsinə çatmışdır. Tarixi abidələr xalqın keçmişinə işıq tutan, onun yaddaşını həmişə təzə saxlayan, canlı arxivdirlər. Tarixi-dini abidələr isə xalqın təkcə tarixi deyil, həm də mənəvi, ruhani yaddaşını hifz edən müqəddəs məkanlardır. Bu baxımdan ermənilərin tarixi-mədəni abidələri, o cümlədən məbədlərimizi məhv etmələri başadüşüləndir. Onlar bu yolla bizim minilliklər ərzində yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək istəyirlər.

1993-cü ildə xalqın ən çətin günündə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Ə liyev bu siyasəti çox yaxşı anlayır, ermənilərin azərbaycanlılara qarşı törətdikləri işğalçılıq, deportasiya və soyqırımı faktlarını dünyaya bəyan edirdi. 1997-ci ildə Ulu Öndər "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki etnik torpaqlardan kütləvi surətdə deportasiyası haqqında" fərman imzaladı. Fərmanda deyilir: *"Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələmərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma, tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".* 2020-ci il 27 sentyabr tarixindən 10 noyabr tarixinə qədər davam edən 44 günlük vətən müharibəsindən sonra yenidən dirşəlməyə can atan tarixi Azərbaycan torpaqları bu gün respublikamızın ərazi bütövlüyü çərçivəsindədir.

**Məqsəd və vəzifələr:** Dissertasiya işini qarşısında duran əsas məqsəd Qarabağ zonasının, Ermənistan Silahlı Qüvvələrinin 30 illik işğalı altında qaldığı dövr ərzində hansı vandalizmə məruz qalmasını, soydaşlarımızın torpaqlarından, yurd yuvalarından didərgin salınaraq evlərinin yararsız hala gətirilməsini dünyaya çatdırmaqdır. Həmçinin bir çox ictimai sosial qurumların bu vəziyyətə səssiz qalmasının qarşısını almaq da qarşıda duran əsas vəzifələrdəndir.

**Tədqiqat metodları:** Azad olunmuş ərazilər haqqında tarixi mənbələrdən məlumatlar toplamaq, bu ərazilərə səfər edərək vandalizmə məruz qalmış evlər, tarixi yaşayış məskənləri, abidələr, dini məkanlar və s. canlı şahidi olaraq, orada canlı tədqiqat aparmaq.

# I FƏSİL
# ERMƏNİ İŞĞALINDAN ÖNCƏ QARABAĞIN İLKİN COĞRAFİ, İQTİSADİ VƏ MƏDƏNİ DURUMU

## 1.1. İşğaldan öncə Qarabağın coğrafi-iqtisadi vəziyyəti

Hər bir ölkə, özünün lokal təbii-coğrafi şəraiti, təsərrüfatının, maddi və mənəvi mədəniyyətinin özünəməxsusluğu ilə fərqlənən etnoqrafik əyalətlət bölünür. Bəzən inzibati ərazi bölgüsü etnoqrafik əyalətlərin sərhəddi ilə eynilik təşkil edir, bəzən də etnoqrafik əyalətlər müxtəlif inzibati ərazi sərhədləri ilə müxtəlif hissələrə ayrılır.

Tarixi etnoqrafik əyalətlərə bölünmə Azərbaycan üçün də qanunauyğun hal olmuşdur. Qarabağ, Şirvan və s. Azrərbaycanın tarixi etnoqrafik əyalətləridir.

Təsərrüfatının, maddi və mənəvi mədəniyyətinin özünəməxsusluğu ilə Qarabağ ümumazərbaycan tarix və mədəniyyətində lap qədimlərdən xüsusi yerə və mövqeyə  malik olmuşdur. Qarabağ ərazisi Kiçik Qafqaz dağlarından başlayaraq Kür-Araz çayları arasındaki sahəni əhatə edir. bu ərazi Kür-Araz çayları qovşağında okean səviyyəsindən aşağıdır. Lakin qərbə doğru getdikcə yüksəlir və nəhayət, Gamışdağ zirvəsində 3724 metrə çatır. O, Qarabağ düzü, Qarabağ yaylası, Qarabağ sıra dağları adlanan müxtəlif relyefə, iqlimə malik ərazilərin məcmusundan ibarətdir.

Azərbaycan subtropik iqlim qurşağında yerləşir. Lakin ərazinin mürəkkəb relyef şəraiti şərqdən – Xəzər dənizi, şimaldan sıra dağlarla əhatələnməsi burada müxtəlif iqlim tiplərinin yaranmasına səbəb olmuşdur. Dünyada mövcud olan on bir təbii iqlim tipindən doqquzu Azərbaycanda, altısı isə Qarabağda vardır.

Qarabağ mülayim iqlimə, zəngin bitki və heyvanlar aləminə, su mənbələrinə malikdir. Odur ki, burada paleolit (qədim daş) dövründən başlamış həyat fasiləsiz davam etmişdir.

Kür və Araz çayları arasındakı ərazi sivilizasiyanın ən qədim və ilk ocaqlarından biri hesab edilir. Burada üçüncü geoloji dövrün sonunda, dördüncü

dövrün başlanğıcında insanın yaşaması üçün təbii şərait mövcud olmuşdur. Bu ərazi Arazlıq dənizi və Şimali Afrika ilə birlikdə bəşəriyyətin ulu əcdadının yarandığı zonaya daxildir. İnsan burada da biososial və sosial varlıq kimi təşəkkül tapmışdır. Bunu Azıx mağarasında aşkar edilmiş arxeoloji materiallar sübut edir.

Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Alban dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə Ərəb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra IX – X əsrlərdə Şəddadilər, XII – XIII əsrlərdə Atabəy-Eldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər) dövlətlərinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur.

Səfəvilər dövləti Qarabağ tarixi-etnoqrafik əyalətinin ərazisini əhatə edən, mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyini yaratdı. Bəylərbəyliyin şimal sərhəddi Gürcüstanın Samxet dağlarına çatırdı. 1736- cı ildə Nadir şah onun əlehinə çıxmış Gəncə xan sülaləsini – Ziyadoğluları cəzalandırmaq üçün Qazax və Borçalı mahalını Qarabağ bəylərbəyliyindən alıb Gürcüstana verdi. Mənbələrdən aydın olur ki, Şəddadilər dövləti bütövlükdə Qarabağ bəylərbəyliyinin ərazisini əhatə etmişdir.Ayrı-ayrı dövrlərdə Azərbaycanın dövlət və inzibati əyalət sərhədləri dəyişsə də, özünəməxsus maddi, təsərrüfat və mənəvi mədəniyyəti ilə xarakterizə olunan Qarabağ bir etnoqrafik əyalət kimi öz inkişafını fasiləsiz olaraq davam etdirmişdir.

XVII əsrin sonundan XVIII əsrin ortalarınadək Azərbaycanın feodal dövlətlərə - xanlıqlara parçalanması zamanı Qarabağ bəylərbəyiliyi ərazisində Qarabağ və Gəncə xanlıqları yarandı.

Qarabağ Azərbaycanın müxtəlif dövlətlərinin tərkibində olarkən dövrün inzibati bölgüsü çərçivəsində sərhəddini hərdən qismən dəyişsə də özünün ənənəvi təsərrüfatının, maddi və mənəvi mədəniyyətinin xüsusiyyətlərini yaşatmışdır. XVIII əsrin ikinci yarısında müstəqil Qarabağ xanlığı feodal dövlətinin yaranması, onun öz müstəqilliyini qorumaq üçün həyata keçirdiyi iqtisadi, siyasi və mədəni tədbirlər Qarabağ tarixi-etnoqrafik əyalətinin sosial-iqtisadi həyatında hərtərəfli yüksəlişə, tərəqqiyə səbəb olmuşdur.

Xanlıq cənub-şərqdən Kür-Araz çayları qovşağı, cənubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Köşbək, Salvartı və Ərikli dağları ilə Göyçə gölə qədər uzanmış, şimaldan Goran-Kür çayı ilə sərhədlənmişdir.

Qarabağ 17 mahala bölünmüşdü: Sisian, Dəmirçi-Aslanlı, Gupara, Bərgüşad, Qəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbird, Xırda-para Dizax, Otuziki, İyirmidörd, Qaraçorlu, Vərənd, Dizax və Açan-türk. On iki mahalın əhalisi bir neçə kənd istisna olmaqla, bütünlüklə Azərabaycandan ibarət idi.

Qarabağ özünün maddi və mənəvi mədəniyyətinin bütün komponentləri ilə təmamilə Azərbaycan xalqına məxsus idi. Qarabağ xalçası, Qarabağ geyim növləri, əl işləri nəinki Azərbaycanda, hətta bütün şərq ölkələrində tanınmışdı və yüksək qiymətləndirilirdi. Qarabağda özünəməxsus çəki və ölçü vahidi mövcüd idi. Kənd təsərrüfatında yüksək ənənəvi əkinçilik və suvarma mədəniyyəti yaranmışdı. Qarabağ atı, Qarabağ qoyunu, Qarabağ inəyi qarabağlı adı ilə dünyada tanınmış türk mənşəli Qarabağ əhalisinin özümlü təsərrüfat mədəniyyətinin nəaliyyəti kimi qiymətləndirilmişdir. Bunlar Qarabağın torpağının, suyunun, havasının sirlərinin empirik üsullarla öyrənilməsi və məhz maldarlıqda spesifik xalq seleksiya üsullarının tətbiqi nəticəsində mümkün olmuşdur.

Mənəvi mədəniyyətin ən mühüm sahələrində də tarixən Qarabağ spesifik xüsusiyyətlərə malik olmuşdur. Hələ XVII – XVIII əsrlərdə Azərbaycan ədəbi dilində ahəng qanunu məhz Qarabağ dialektinin təsiri ilə ardıcıllaşır. Qarabağ şairlərini birləşdirən “Məclisi-üns” və “Məclisi-fəramüş” öz üslübü ilə seçilirdi. Qarabağ musiqi məktəbi isə hətta bütün Şərqdə məhşur idi. Görkəmli musiqişünas V. Vinoqadov yazırdı ki, Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həmdə Şərqin başqa ölkələrində təmsil etmişlər. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyası hesab olunmuşdur.

Qarabağda spesifik xüsusiyyətləri ilə formalaşıb inkişaf edən təsərrüfat, maddi və mənəvi mədəniyyət bütün komponentlər ilə birlikdə bir kökdın qidalanır, vahid özül üzərində dayanırdı. Hətta əhalinin dağlıq zonada yaşayan müəyyən hsissəsinin xristian olduğuna baxmayaraq, xristian mədəniyyəti yalnız bu əhalinin

dini əqidəsində duyulurdu (osetinlər, tatarlar və s.) . Bu fikri elm aləmində yüksək nüfuza malik bir sira alimlər demişdir. Bunlardan İ.P.Petruşevskinin qənaəti daha obyektiv hesab olunmalıdır. 1928-ci ilin iyun-avqust aylarında Q.M. Ter-Sarkisyanla birlikdə Dağlıq Qarabağ və Zəngəzurda etnoqrafik səfərdə olan alim Qarabağın türk və xristian əhalisinin müxtəlif bitkilərə, ağaclara. Heyvanlara və s. Bəslədiyi ilkin inam və etiqadlarına, xristian və müsəlman dini etiqadları və mərasimlərinə aid zəngin etnoqrafik material toplamışdır. İ.P. Petruşevski yazır ki, Qarabağ əhalisinin müsəlman və xristian dininə etiqadı zəif olmuşdur, ilkin inam və etiqadları ümumi olmuş və çox qüvvətlidir. O, xristian abiddələrinə münasibət haqqında yazır ki, Tetav və Qadzasar monastrlarına ermənilər təsadüfən gəliblər, daha doğrusu, Qandzasar monastrına son vaxtlar heç gəlmirlər, onlar çox xəsis olurlar. Bu ziyarətgahlara, birici növbədə Qandzasara türk maldarları tez tez gəlirlər. Xüsusən mal-qaranı yaylaq və qəşlağa köçürərkən mütləq monastrlara gəlirlər və çox səxavət göstərirlər.

Qarabağ əhalisinin maddi, təsərrüfat, mənəvi mədəniyyəti, inam və etiqadlarına aid zəngin etnoqrafik məlumatı təhlil edib tarixi mənbələrə əsaslanan İ.P. Petruşevski bu qənaətə gəlir ki, Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mədəniyyət olub Azərbaycan xalqına məxsusdur.

Ermənilərin Qarabağla əlaqəsi nə vaxtdan, necə yaranmış və hansı mərhələlərdən keçmişdir?

Ermənilərin Qarabağla əlaqəsi və onların burada məxskunlaşmağa can atması müxtəlif dövrlərdə Azərbaycanın işğalı zamanı onların yadellilərlə göstərdiyi tarixi xidmətləri və dini etiqadları ilə bağlı olmuşdur.

Ərəblər Azərbaycanı işğal etdiyi zaman Albaniyada, Bizans imperiyasında olduğu kimi xristian dininin diofizit təriqəti mövcud idi. Ermənilər isə monofizit - qriqoryan təriqətinə mənsub idilər. Bu zaman Ərəb Xilafəti Bizans imperiyasının yeganə və başlıca rəqibi idi. Ərəblər bizans imperiyasının nüfuz dairəsində olan ölkələri tutmaq üçün onlardan – narazı qüvvələrdən istifadə edirdilər. Belə qüvvələrdən biri ermənilər idi. Göstərmək lazımdır ki, azsaylı xalqların böyük

xalqlar üzərində üstünlüyünü yaratmaqla onlardan istifadə etmək siyasəti müsəmləkəçilik tarixində istifadə olunan ənənəvi üsuldur. Bu cəhətdən də ermənilər ərəblər üçün sərfəli idi, çünki müstəqil dövlətə malik deyildirlər, sayca az olub dağınıq yaşayırdılar. Odur ki, ərəb xilafəti ermənilərə dini azadlıq verməklə həm Bizans imperiyasına, həm də Albaniyaya qarşı onlardan istifadə etdi. Ermənilərin başlıca vəzifəsi dini təriqətcə bir-birinə bağlı olan Albaniya ilə Bizans imperiyasının əlaqəsinə yol verməmək idi. Ona görə də erməni katalikosu İlya Xilafətə Alban kilsəsinin Bizans təmayüllü olması haqqında məlumat verən kimi Xəlifənin səyi ilə Alban kilsəsi erməni qriqoryan kilsəsindən asılı vəziyyətə salındı. Beləliklə, erməni kilsəsi Alban kilsəsini qriqorinlaşdırmağa başladı. Lakin bu. əhalinin ciddi müqavimətinə rast gəldi. Çünki Albaniya ərəblərin hakimiyyəti altında olduğundan, islam dinini qəbul edən əhali bir sıra ağır vergilərdən azad olmaqla bərabər, müsəlman ölkələrində azad fəaliyyət göstərmək imkanı qazanırdı.

X əsrin axırına kimi Albaniyada islam dini əsasən qalib gəldi. Xristian dini etiqadında qalan əhali isə indiki Dağlıq Qarabağın az bir hissəsini əhatə edən əraziyə toplaşdı və xristian Xaçın knyazlığını yaratdı. Xaçın xristian knyazlığı əsasən erməni qriqoryan kilsəsinin təsiri altında olduğundan kilsə dəftərxanasında işlər ermənicə aparılmağa başladı. Lakin Alban kilsəsi qriqorianlaşmağa qarşı ciddi müqavimət göstərir, kiçik bir ərazidə olsa da, öz müstəqilliyini qoruyub saxlaya bilirdi.

XIII əsrdə xaçın knyazı Həsən Cəlalın dövründə Gəncəsar monastrı tikildi və alban katalikosluğunun mərkəzi yaradıldı yenidən liofizit təriqəti qalib gəldi.Bu mərkəz müstəqil fəaliyyət göstəribermәni kilsəsi ilə razılaşmamağa başladı. Alban kilsısinin bu üstünlüyü çarizmin Azərbaycanı işğal etməsindən sonra da, yəni 1836 cı ilədək davam etmişdir.Həmin ildə Peterbruq müqəddəs sinodunun qərarı ilə alban kilsəsi rəsmi surətdə bağlanmış və o erməni kilsəsinı çevrilmişdi.

Tarixçilər Arsax-Xaçın ərazisində xristianlığın alban diofizit və erməni monofizit təriqətinin təsirindən danışarkən albanların,məhz bu ərazidə yaşayan Xaçın tayfalarının etnik mənsubiyyətindən,ərazinin iqtisadi-mədəni cəhətdən hansı

etnoqrafik əyalət və dövlətlə tarixi bağlılığından ya yan keçir, ya da buna ikinci dərəcəli məsələ kimi baxırlar.

İ.Petruşevski Zəngəzur və Dağlıq Qarabağa aid apardığı tarixi etnoqrafik tədqiqata əsasən Qarabağ əhalisinin bir kökdən olması qənaətinə gəlmişdır. 1723-cü ildə Qarabağ məlikləri I Pyotra məktublarında özlərini alban adlandırır, həmçinin onlarla qonşuluqda yaşayan əhalinin müsəlman alban olduqlarını göstərmişlər. Bu fakt da Qarabağ əhalisinin etnik tərkibcə eyni mənşəli olmasına dəlalət edir. Digər tərəfdən qarabağın inzibati bölgüsündə işlədilən məliklik anlayışı yalnız Azərbaycana məxsus inzibati bölgü sistemidir. Azərbaycanın məlik-feodal anlayışının ermənicə adı naxarardır. Bu termin nə Qarabağda nə də Azərbaycanın digər zonasında qeydə alınmamışdır.

Həmçinin toponimist və dilçi alimlər Qarabağ,Arsax,Xaçın,Alban,Aran terminlərinin türk mənşəli olması haqqında yekdil fikirdədirlər. Alban etonimi öz paralelini ancaq türk xalqları-Qazax,Qırğız ,Türkmən ,Türk və digər Altay xalqları arasında tapır.Alban sözünü Çinlilər "Azərbaycan" kimi tərcümə edirlər.Dağlıq Qarabağ Arsax adını (Ər-Sak) adını e.ə 6 cı əsrdə Kür-Araz çayları arasında öz çarlığını yaradan Skiflərin adından almışdır.Assur mənbələrində Aşquza,İşquza kimi qeyd edilmişdir.(Skiflərin türk mənşəli olması artıq elmə sübut edilməkdədir).Qarabağın dağlıq hissəsini təşkil edən mahalda tayfaların konsolidasiyası sayəsində Xaçın tayfası üstün mövqe tutanda bu mahal Xaçın mahalı ,Cavanşir nəsli siyasi həyatda aparıcı qüvvəyə çevriləndə isə Cavanşir mahalı adlanmışdır.Qarabağ tarixinin ən şöhrətli çağları da Cavanşir nəslinin siyasi hökmranlığı dövrüdür.Qarabağ xanları sülaləsini də Azərbaycana bu nəsil vermişdir.Hətta bəzi tarixçilər Qarabağın Cavanşir nəslini 7 ci əsr Alban hökmdarı olmuş Cavanşir sülaləsinin varisləri hesab edirlər.

Məliklik əhalisinin etnik tərkibinin müəyyənəşdirilməsində onların kənd adları daha obyektiv məlumat verir. Xaçın mılikliyi ibarət idi: Xındırıstan,Seyidbəy,Sarakeşim,Badərə,Qayabaşı,Xoramud,Koladağ,Bağlı uol,Şəlvə,Uraxaç,Vanıxlı,Talış mahalı:Qaraçinar,Talış,Erkəc,Qarabulax,Buzlax,Ağca kənd (sonuncu müsəlman

idi), Çiləbird mahalı: Qısabert, Gülyataq, Kiçik Qarabağ, Ulu Qarabağ, Maqauz, Həsənriz, Yengicə, Naxçivanik. Göstərilən kənd adlarının Azərbaycan mənşəli əlavə izahat tələb etmir.Yalnız iki-üç kənd adında erməni söz tərkibi var.Bu da Çarizmin erməniləri bura köçürməsindən sonra yaranmışdır.Digər iki mahalda da kənd adları göstərilən kimidir.

XIX əsrin 80-ci illərində Qarbağ yaylaqlarını öyrənən M.A Skibitski Qarabağ dağlarında 567 yaylaq və yurd yeri qeydə almışdır.Bundan yalnız bir toponimin rus dilinə,iki toponimin isə erməni dilinə aid olmasını ehtimal etmək mümkündür.

Qarabağ toponiminin açılımı ,həmçinin alban etnoniminin etnik mənşəyinin açılımı üçün də xüsusi əhəmiyyətə malikdir.Qarabağ tponiminin mənası haqqında müxtəlif fikirlər var.Onlardan biri budur ki, ölkədə “qara üzüm yetişdirildiyindən və yaxud ölkədə guya qara yarpaqlı bağlar olduğundan ona Qarabağ deyilmişdir.Ş.Cəmşidov isə Qarabağ sözünü “Şimal-Qərb bağı”kimi izah etməyə çalışmışdır.Onun fikrincə,Qarabağ düzünə ad Beyləqandan verildiyi üçün (Qarabağ düzü Beyləqan şəhərinin şimal-şərqində olmuşdur)o belə adlandırılmışdır.Fərziyyə söyləyənlərin hamısı Qarabağı ölkə və ya düzənlik kimi təsəvvür etmiş,”Bağ”-ı bəzən “Meşə” kimi başa düşmüşlər(ölkə başdan-başa bağ ola bilməz,meşə ola bilər.

Fərziyyə müəlliflərini ən çox çaşdıran “Qara”sözü olmuşdur.Ş.Cəmşidovdan başqa onlar hər yerdə “Qara”-nı rəng kimi başa düşdüklərindən ,Qarabağı “Qara üzümlü”,”Qara yarpaqlı bağ” kimi izah etməyə çalışmışlar.Respublika toponimikasında qara ilə gələn coğrafi adların tədqiqi qaranın vaxtilə “rəng”,”ağır”,”qərb”,”böyük”,”qoçaq”,”sıx”,”qalın”,”çoxluq”mənalarında işləndiyi müəyyən edilmişdir.

Bəzi tədqiqatçıların fikrinə görə,Qarabağ tarixi etnoqrafik əyaləti adını qədim Qarabağ şəhərlərindən almışdır.Toponimist R.Yuzbaşov Qarabağ şəhərinin 7 ci əsrdən mövcud olması,17 ci əsrdə süqut etməsi fikrindədir.17 ci əsr alman səyyahı A.Olearinin tərtib etdiyi xəritədə Qarabağ şəhərinin Füzuli rayonunun Horadiz dəmir yolu stansiyasından şərqdə ,cənubi Azərbaycanda , Aslandüz kəndi yaxınlığında Qarasu çayının Araz çayına tökülən mənsəbinəyaxın ərazidə olduğu

göstərilir.Tədqiqatçılardan Qarabağın etnonim olması fikrində olanlarda var.Bu mülahizəni ən çox müdafiə edən isə İlhami Cəfərsoyludur.

Təəssuf ki, Qarabağ toponimindən bəhs edən müəlliflərdən heç biri Çiləbird mahalı ərazisindki Kiçik Qarabağ,Ulu Qarabağ(Bəzi mənbələrdə Böyük Qarabağ da adlandırılmışdır)toponimindən bəhs etməmişdir.Ulu Qarabağ toponimi sıx,qalın meşəlik bir sahədə yerləşməsi Qarabağ toponimini sıx, qalın meşəlik yer kimi izah edən müəlliflərin fikrini əyani olaraq təsdiq edir.

Qarabağ toponiminin sıx meşəlik, Bağlıq ərazi mənasını ifadə etdiyi fikri qəbul olunduğu halda ,Qarabağ şəhərinin yarımsəhra Aslandüz çölündə yerləşməsi qeyri-məntiqidir.Digər tərəfdən, şəhər adətən ,hər bir ölkə və ya əyalətin ticarət ,sənətkarlıq və mədəni mərkəzi olmaqla onun daxilində yerləşdiyi halda ,Qarabağ şəhərinin Qarabağ əyalətindən kənarda ,hətta Araz çayının cənubunda Aslandüz çölündə yerləşməsi praktiki cəhətdən mümkün deyildir.

Azərbaycan ərazisində Oykonim (kənd, qəsəbə və şəhər adları bildirən topnimlər) kimi əsrimizə ancaq Ulu Qarabağ (Böyük Qarabağ) və Kiçik Qarabağ toponimləri gəlib çatmışdır. Ulu Qarabağ toponimində ifadə olunan “Ulu” sözü bu yaşayış məntəqəsinin hələ çox qədimlərdə ,insanların əsasən təbiətin hazır məhsulları ilə güzəran keçirdiyi dövrdə yaranmış olduğunu göstərir; onunla birlikdə Qarabağ anlayışı da meydana gəlmişdir. Bu yaşayış məntəqəsi tədrəcən böyüyüb inkişaf etmiş,kəndə,şəhərə çevrilmişdir. Lakin Azərbaycanın dünya ölkələri ilə iqtsadi və mədəni əlaqələri daha sürətlə artdığı bir zamanda bu şəhər təbii coğrafi şəraiti ilə əlaqədar olaraq (hər tərəfdən sərt dağlar və keçilməz meşələrlə əhatə olunduğundan buradan karvan yollarının keçməsi mümkün deyildi) əyalət və ölkənin mədəni mərkəzi səviyyəsinə yüksələ bilmışdir. Dünya ticarət yolları üzərində yerləşən Beyləqan, Bərdə və Gəncə şəhərləri inkişaf edərək Qarabağın və Azərbaycanın mədəniyyət mərkəzlərinə çevrilmiş,Qarabağ şəhəri isə adi əyalət səviyyəsində qalmışdır. Mənbələrin məlumatlarından məlum olur ki, şəhərin müxtəlif səbəblərdən bir neçə dəfə dağılması da onun inkişafına mane olmuşdur. Ağdərə (Mardakert) rayonunda yerləşən Böyük Qarabağ kəndi mənbələri bizə haqqında məlumat verdiyi Qarabağ şəhərinin qalıqlarıdır. Bu

ehtimalın həqiqətə nə qədər müvafiq olduğu Böyük Qarabağda aparılacaq arxeoloji qazıntılar göstərəcəkdir.

Görəsən, erməni etnosunun saldığı kəndi Ulu Qarabağ, Kiçik Qarabağ adlandırılması nə qədər ağla batandır. Bəs nəyə görə xaricdən Qarabağa gələn ermənilər Ağdərənin adını dəyişdirib Mardakert, Ulu Qarabağın adını Mets-şert qoydular, Dağlıq Qarabağın toponimlərini kütləvi sürətdə dəyişməyə başladılar.

Qarabağ tarixən Azərbaycanın iqtisadi cəhətdən zəngin,inkişaf etmiş əyaləti olmuşdur. O,coğrafi mövqeyinə görə şərq və qərb ölkələri arasında sanki bir körpü idi. Təsadüfi deyil ki, İran dövləti Qarabağı Zaqafqaziyanın açarı,rus çarizmi isə onu nəinki Azərbaycanın, hətta İranın qapısı hesab edirdi.

Avropanın jandarmı, Asiyanın cəlladı olan çarizm bu xüsusiyyətləri Azərbaycanda da göstərirdi. Hər yerdə olduğu kimi o,şərqdə də millətləri və xalqları qarşı-qarşıya qoyub və Azərbaycanı işğal etmək üçün ermənilərdən bir vasitə kimi istifadə edirdi.

XVII əsrin sonu, XVIII əsrin əvvəllərində zəifləmiş Səfəvi dövləti özünün son günlərini yaşayırdı.Artıq ayrı-ayrı feodallar mərkəzə tabe olmurdular.Səfəvi dövlətinin kiçik feodallıqlara parçalanması Azərbaycana göz dikmiş siyasətçilərin diqqətindən yayınmadı.Onlardan biri də rus çarizmi idi.Şimal müharibəsini qələbə ilə başa vurub Rusiyanı imperiya ,özünü imperator elan edən I Pyotr Azərbaycanı işğal etmək ,burada özünə dayaq yaratmaq məqsədilə ermənilərdən və xristian təəssübkeşliyindən məharətlə istifadə etdi. Ermənilər Azərbaycanın təbii-coğrafi şəraiti ,sosial- siyasi vəziyyəti haqqında Rusiyaya məlumat verir,müharibə zamanı yolları göstərmək və s. məsələlərdə rus qoşunlarına köməklik göstərirdilər. Təsadüfi deyil ki, İbrahim xanı devirmək məqsədi ilə Məlik Cümşüd hələ 1796-cı ildə Gürcüstana getmiş, oarada rus çarizminə xidmət etmək üçün müqavilə bağlamış və bu xidməti müqabilində çar Pavel ona hər il 1400 manat təqaüd ayırmışdır. O bu təqaüdü ardıcıl almışdır. Qarabağın işğalını və İbrahim xanın öldürülməsini ermənilər təşkil etmişdilər.

XIX əsrin başlanğıcından Rusiyanın Azərbaycanı işğal etməsi planı ardıcıl sürətdə həyata keçirilir. Qafqaz qoşunlarının baş komandanı Sisianov Gəncəni

tutandan sonra, 1805 22 may tarixli 19 nömrəli raportunda yazır ki,Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın ,eləcə də İranın qapısı hesab edilir,buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhdgöstərməliyik. Belə bir məqsəd tezliklə həyata keçirildi və 1805 ci il mayın 14 də Kürəkçay sahilində Qarabağ xanı İbrahim xanla Sisianov arasında bağlanan müqaviləyə əsasən Qarabağ xanlığı (Tarixi Qarabağ)Rusiya tabeliyinə daxil oldu.

1822-ci ildə Qarabağ xanlığı ləğv edilib , əvəzində eyni adlı əyalət yaradıldı ki, bu əyalət də 1840-cı ildə Şuşa qəzasına çevrilib Kaspi(Xəzər) vilayətinə daxil edildi.1868-ci ildə Yelizavetpol quberniyası yaradılarkən Şuşa qəzası bu quberniyaya daxil edildi və onun tərkibində yeni Zəngəzur qəzası yaradıldı. 1883-cü ildə Şuşa qəzasının tərkibində yeni Cavanşir və Cəbrayıl qəzaları təşkil olundu. Qarabağın bu inzuibati bölgüsü 1921-ci ilə qədər davam etdi.

Ermənisatn SSR yaradılarkən Qarabağın böyük bir hissəsi olan Zəngəzur qəzası 1921-ci ildə ona verildi. 1923-cü ildə isə Qarabağın dağlıq hissəsində (Cavanşir qəzası bütovlüklə, Şuşa və Cəbrayıl qəzalarının isə dağlıq hissəsi) ermənilərə muxtariyyət verildi.Beləliklə də Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı və o vaxtdan Dağlıq Qarabağ termini ortaya çıxdı.

## 1.2. İşğaldan öncə Qarabağın əhalisi və etnik tərkibi

Qarabağ xanlığı Rusiya tərkibinə daxil olan kimi, P.D.Sisianov Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün Zaqafqaziyanın digər əyalətlərindən erməniləri buraya köçürdü. Ümumiyyətlə, 1805 ci ildən başlayaraq müxtəlif mərhələlərdə Azərbaycana xeyli erməni ailəsi köçürülmüşdü.

Çar məmurları 19 cu əsrin əvvəllərində Qarabağın ümumi əhalisinin ,o cümlədən burada yaşayan ayrı –ayrı xalqların sayını öyrənmək üçün müəyyən işlər görmüşdülər.

1805-ci ildə Qarabağda 10000 ailənin yaşadığını göstərən bir mənbə , 1808 ci ildə əhalinin sayının azalıb 1747 ailəyə çatdığını qeyd edir. Göstərilən illərdə

Qarabağda əhalinin sayının azalmasını bütün mənbələr təsdiq edir. Qarabağ əhalisinin sayı və etnik tərkibi haqqında daha ətraflı məlumat verən ikinci ən mühüm sənəd Yermolov və Mokilyovski tərəfinfən tərtib olunan Qarabağ əyalətinin vergi dəftəridir. 1823 cü ildə tərtib olunan bu sənəddə əhalinin kəndlər və ailələr üzrə sayı , milliyyəti göstərilir. Sənədin tərtibində şovinist və milliyətçi əhval – ruhiyə özünü biruzə verir. Belə ki, erməni ailəsi yerləşdirilən hər hansı bir Azərbaycan kəndi əsassız şəkildə erməni kəndi kimi qeydə alınır. Bu mənbənin digər nöqsanlı məqamı isə ondan ibarətdir ki, sənədin tərtibinə qədər Qarabağa köçürülmüş erməni ailələrinin sayı birbaşa siyahıya alındığından, burada birləşməyə qədər olmuşerməni əhalisinin sayını müəyyənləşdirmək mümkün deyil. Sənəddə 1823 cü ildə Qarabağda əhalinin sayı və tərkibi aşağıda cəvəldə göstərilən kimidir:

***Cədvəl 1.1.***

**1823 cü ildə Qarabağda əhalinin sayı**

| Millətlər | Ailələrin sayı | Şəhərdə | Kənddə |
|---|---|---|---|
| **Azərbaycanlı** | 15729 | 1111 | 14618 |
| **Erməni** | 4366 | 421 | 3945 |
| **Cəmi** | 20095 | 1532 | 18563 |

Görüldüyü kimi, 1823 cü ilə qədər Qarabağa köçürülənlərin hesabına əyalitdəki ermənilərin ümum 6351 nin kürdi sayı artıb 4366 ailəyə çatmışdır. Sonraki illərdə də Qarabağa ermənilərin köçürülməsi davam etfirilmişdir. 1825-1826 cı illər Rus-İran müharibəsinin gedişində daha 18 000 erməni ailəsi Qarabağa köçürülmüşdür.Bunlar indiki Qarabağa yerləşdirilmiş və Marağalı, Canyataq, Yuxarı Çaylı,Aşağı Çaylı,və.s kəndləri yaradılmışdır. Digər mənbədə göstərilir ki, Zəngəzurda Əxlatian,Pirnaxot,Şinatağdan başqa erməni kəndləri 1828-1829 cu illərdə Qaradağdan, Gərməli, Xoy və Salmasdan gəlmişlər.

1828-ci il fevralın 10 da Azərbaycanı bölüdürmək haqqında Rusiya və İran arasında bağlanan Türkmənçay müqaviləsi əsasında 8249 erməni ailəsi Zaqafqaziyaya köçürülüb İrəvan xanlığı,Qarabağ və Şirvan əyalətlərində yerləşdirilmişlər.Ümumiyyətlə, Türkmənçay müqaviləsinin şərtləri əsasında, bu

müqavilədən sonra,bir neçə ay ərzində İrandan Azərbaycana 40000 erməni ailəsi köçürüldü.1829-cu ildə Rusiya ilə Türkiyə arasında bağlanan Ədirnə sülh müqaviləsinə əsasən 1830-cu ildə Türkiyədən Zaqafqaziyaya daha 12655 erməni ailəsi köçürüldü.

Ümumiyyətlə 1828-1830 cu illər arasında çarizm Zaqafqaziyaya Türkiyədən 84600 erməni köçürmüş,Qarabağın ,İrəvanın,Borçalının,Axalkal və Axaltsixinisin ən yaxşı torpaqlarında yerləşdirmişdir.Ermənilər Qarabağın bütün sahələrində deyil ,Göyçə göldən başlamış dağlıq zonalarına paylanmışdır.Qarabağın dağlıq zonasına əvvəlcə rəsmən 124000 ,daha sonra da qeyri-rəsmi olaraq xeyli erməni köçürülmüşdür.Ümumiyyətlə 1828-1839 ci illərdə Qarabağın dağlıq zonasına 200000 erməni köçürülmüşdür.Krım müharibısi illərində də Zaqafqaziyaya xeyli erməni gətirilmişdir.Təəsüf ki, bunların sayı qeydə alınmamışdır.1877-1879 cu illər Rus-Türk müharibəsi illərində Zaqafqaziyaya 85000 erməni gətirilmişdir. Bu müharibədən sonra Zaqafqaziyaya Türkiyədən arası kəsilmədən ermənilərin ailəliklə və ayrılıqda köçməsi davam etmışdır.Ən çox köçmə isə 1893-1894 cü illərdə olmuşdur.Artıq 1896 cı ildə Zaqafqaziyada gəlmə ermənilərin sayı 900000 nəfərə çatmışdır.1908 ci ildə gəlmələrin hesabına Zaqafqaziyada ermənilərin sayı artıb 1300000 nəfərə çatmışdır ki,bunun da 1000000 nəfərinin çarizm xarici ölkələrdən köçürüb gətirmişdir.

1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54841 ailədən 29350 sinin Azərbaycanlı, 6351 nin Kürd , 18616 sının erməni və 193 nün rus ailəsi olduğu göstərilir. Qalanlar isə müxtəlif xalqlara mənsub olmuşdur.

1917-ci ildə isə Qarabağda ermənilərin sayı gəlmələrin hesabına artıb aşağıdaki cədvəldə göstərildiyi kimi olmuşdur.

***Cədvəl 1.2.***

**1917-ci ildə Qarabağda ermənilərin sayı**

| Qəzalar | Əhalinin ümumi sayı (nəfərlə) | Azərbaycanlı | Erməni |
|---|---|---|---|
| Şuşa | 144876 | 66501 | 75413 |
| Cavanşir | 69467 | 46947 | 22008 |
| Cəbrayıl | 89584 | 65587 | 21755 |
| Zəngəzur | 224197 | 119480 | 99331 |

| | | | |
|---|---|---|---|
| **Şəhərlər** | | | |
| Şuşa | 43869 | 19121 | 23393 |
| Gorus | 2201 | 225 | 1724 |
| Qarabğın ümumi əhalsinin sayı | 574194 | 317861 | 243627 |
| Dağlıq Qarabağın ümumi əhalisi | 188745 | 85841 | 98809 |
| Şuşa qəzası şəhərlə birlikdə | 69467 | 46947 | 22008 |
| Cavanşir qəzası | 258213 | 132894 | 120817 |
| **Faizlə** | 100% | 51% | 46% |

Q.A. Koçaryan yazır ki, guya 1921-ci ildə Dağlıq Qarabağda ya.şayan əhalinin 94.4% i erməni ,5.6% i Azərbaycanlı olmuçdur.Əvvəla 1921-ci ildə Dağlıq Qarabağ anlayışı olmamışdır. Əgər Q.A.Koçaryan Dağlıq Qarabağ əhalisinin yaşayış məntəqələri üzrə ,milli tərkibini göstərməklə hesablasa idi ,yəqin ki, bu rəqəmləri göstərə bilməzdi.Q.A.Koçaryan dediyinə görə 1917-1921 ci illər arasında ,yəni 4 il ərzində Dağlıq Qarabağda ermənilər 48% artmışdır. Təəssuf ki, bunu fantaziya kimi də qəbul etmək mümkün deyildir. Lakin bir fakt həqiqətdir ki,1921 ci il daşnaqların Qarabağ sevdasının aşıb daşdığı, məcrasından çıxdığı illərdən biridir.

Ermənilər İrandan Qarabağa köçürülərkən,artıq birinci növbədə süqut etmiş Bərdə şəhərini dirçəltmək və onları əsasən burada yerləşdirmək fikrində idi.Lakin ermənilər həmişə dağ şəraitində yaşamış olduqlarından Qarabağ düzünün yayına dözə bilmədikləri üçün Bərdəni dirçəltmək siyasətindən əl çəkmək qərarına gəlindi.Ermənilərin Şuşa şəhərində yerləşdirilməsi böyük müqavimətə rast gəlmişdi.Lakin çarizm ermənilərin buraya köçürülməsinə nail ola bildi.Mənbələrdə ermənilərin əsasən dağlıq ərazilərdə yerləşdirilməsində çarizmin xüsusi siyasi məqsəd güddüyü qeyd edilir.

Mənbələr XIX əsrin əvvəllərində Qarabağda yaşayan ,”erməni”adlanan xristian əhali ilə sonradan buraya köçürülən erməni əhalisinin mədəni inkişaf səviyyəsində və mənəvi mədəniyyətində olan ciddi fərqlər haqqında ətraflı məlumat verir.Yerli ermənilər gəlmələrin dilini çox çətinlik ilə başa düşmüş ,hətta geyimləri ilə də onlardan fərqlənmişlər və gəlmələr yerlilərə dillərini unutdurmuşlar.

Mənbələr,etnoqrafik və toponomik məlumatlar ,elmi tədqiqatlar təsdiq edir ki, hələ XIX əsrin əvvəllərində Qarabağın xristian əhalisində gəlmə ermənilər vasitəsilə müəyyən dərəcədə erməniləşmə prosesi getsə də, yerli əhali tam assimlasiyaya uğramamışdır. Qarabağ Rusiyaya birləşdirildikdən sonra burada İran və Türkiyədən gətirilən ermənilərin çoğluğu yaradıldıqdan sonra xristian əhali assimlasiyaya uğramışdır.

1735-ci ildə Türkiyə ilə müharibədə qazanılmış nəaliyyətlərdən və Qəndəhardan başqa işğal edilmiş bütün ərazilərin geri qaytarılmasından istifadə edərən Nadir xan özünü şah elan etməyə hazırlaşır. 1736-cı ilin yanvar ayında Nadir xanın əmri ilə Muğanda feodal əyanlarının şurası çağırıldı. Qurultaya 20 minə yaxın adam gəlmişdi.

Nadir Şah qurultay iştirakçılarının qarşısında çıxış edərək bildirir ki, o yorulmuşdur və dövlət işlərindən uzaqlaşmaq istətir. O iştirakçıları yeni şah seçməyə çağırdı, belə ki, III Abbas hələ uşaqdı və dövləti idarə etmək iqtidarında deyildir. Qurultay Nadir xanın tərəfdarları tərəfindən müvafiq qaydada hazırlanmışdı. Səfəvilərin tərəfdarı olan molla başı (baş molla) Səfəvi sülaləsinin xeyrinə danışdıqda, o, Nadir xanın əmri ilə qətlə yetirildi. Qurultay Nadir xana sədaqətli olan ordu tərəfindən mühasirəyə alınaraq qorunurdu[1].

Bəzi müəlliflərdə belə bir rəy formalaşıb ki, qurultay üçün Muğanın seçilməsi onunla bağlıdır ki, buranın otlaqları Nadir xanın çox sayda atlı qoşununu yemlə təchiz edə bilərdi. Lakin məsələ yalnız bununla bağlə deyildir.

### 1.3. İşğaldan öncə Qarabağın tarixi-mədəni irsi

Azərbaycan xalqına qarşı olan erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, eyni zamanda yaşı minilləri ötən tarixi mədəni abidələrimiz, dini ocaqlarımız və məbədlərimizdir. Günümüzdə, erməni təcavüzünün qurbanı olmuş dini-mədəni abidələrimizin ümumi sayını müəyyənləşdirmək və onlar haqqında tam məlumat toplamaq üçün araşdırmalar davam edir. XIX əsrdən

[1] BORÇALI TORPAQLARININ TARİXİ. – Bakı: Mütərcim, 2016. – [səh 58-59]

etibarən Qarabağa və Azərbaycanın digər ərazilərinə köçürülən ermənilər müxtəlif vaxtlarda, ilk öncə azərbaycanlıların torpaqlarını, burada yaşayan soydaşlarımızı, daha sonra abidələrimizi təcavüzə məruz qoymuşlar.

Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri hesab olunur. Belə ki, 2 mln il yaşı olan Azığ düşərgəsi məhz Azərbaycanda - Qarabağda yerləşmişdir. İşğaldan öncə Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya, 292 ölkə, 330 yerli əhəmiyyətə malik tarix və mədəniyyət abidələri var idi. Lakin onların bir çoxu mənfur düşmənlərimiz tərəfindən məhv edilmişdir. Qarabağın dağlıq və düzən hissəsində dolmenlər (Xocalı), kromlexlər (Xankəndi), eləcə də antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-mənəvi düşüncəsini əks etdirən qiymətli maddi mədəniyyət nişanələridir.

Qarabağda epiqrafik abidələr 333 B.e.ə. VI-III əsrlərə aid Qarabağın Dağlıq ərazisində çoxlu sayda skif kurqanları aşkar edilmişdir ki, bu da qədim dövrlərdən həmin ərazilərdə türklərin məskən saldığının aşkar nişanəsidir. Antik mənbələr Qarabağın qədim ərazisində - Uti, Arsak və Paytakaranda qədim şəhərlərin mövcudluğu barədə maraqlı məlumatlar verir. Bərdədə, Govurqalada (Ağdam), Qaraköpək təpədə (Füzuli), Ergi yaşayış yerində (Ağcabədi) və digər ərazilərdə aparılan arxeoloji tədqiqatlar deyilənləri təsdiq edir. Qarabağda, həmçinin, xristian məbədlərindən Çəncəsər (Qanzasar), Amaras, Yelisey, və Xotavəngi misal göstərmək olar. Aşkarlanmış tarixi qalıqlara əsasən demək olar ki, XIX əsrə qədər Dağlıq Qarabağda heç bir zaman erməni etnik kütləsi olmamışdır. Yalnız XIX əsrdən etibarən buraya çoxlu erməni ailəsi köçürülmüşdür. Bunu Dağlıq Qarabağda Ağdərənin (Mardakert) Marağa kəndində Qarabağa (İranın Marağa şəhərindən) ilk 200 ailənin (erməni ailəsinin) köçürülməsi şərəfinə 1978-ci ildə ermənilərin özlərinin qoyduqları abidə əyani şəkildə sübut edir. XI-XII əsrlərdə Qarabağda memarlıq və şəhərsalma, dekorativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr də çoxalmışdır. Qarabağ zonasında çoxu müsəlman dövrünə aid olan 2000–dən artıq müxtəlif tarixi və mədəni abidələr qeydə alınmışdır. Bunların arasında yaşayış evləri, ictimai binalar, həmçinin dini tikililər, ziyarət yerləri vardır. Füzuli bölgəsində Şeyx Yaqubun (XII əsr) türbəsi, Qoç

Əhmədli Cümə məscidi, Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Şeyx İbrahim türbəsi (XVII əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (1307), Horadiz kəndindəki Cümə məscidi, Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Cəbrayıl rayonunda "Qız qalası", Cəbrayılın Şıxlar kəndində türbə (1308) və digər türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 334 künclü türbə və digər türbələr, Ağdam Cümə məscidi (1870), Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bərdə", "Axsadan baba" türbələri (XIV əsr), Kərbəlayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli "İmamzadə" məscid kompleksi (1868), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir. XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir. Ağdamda imarətlər, Pənah xana və nəslinə aid günbəzlər tikilmişdir. 335 Qarabağ xanlığı dövründə bir çox qalalar (Bayat, Şahbulaq, Pənahabad (Şuşa)) tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmışdır. Tədqiqatlar Qarabağın maddi mədəniyyət irsinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübüt etməyə əsas verir. Qarabağ abidələrinin bu günkü taleyinə gəldikdə, XX əsrin sonlarında Ermənistanın törətdiyi pozuculuq fəaliyyəti, münaqişə və müharibə Azərbaycanın Qarabağ bölgəsində maddi mədəniyyət abidələrinin taleyini təhlükə altına qoydu.

Müharibə ərəfəsində abidələrin qeydinə qalmağa imkan belə olmadı. Muzey kitabxanaların və eksponatlarının köçürülməsinə imkan verilmədi. Davam edən vandalism nəticəsində Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv etdilər, Xocalı kurqanlarını yer üzündən sildilər. Şuşada Azərbaycan mütəfəkkirlərinin heykəllərini avtomat güllələri ilə deşik-deşik etdilər. Şuşa muzeylərini dağıtdılar. Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası ermənilərin sursat anbarına çevrildi. İslam abidələri dağıdılıb yer üzərindən silindi. Alban xristian abidələri isə təmamilə saxtalaşdırıldı. Xalqımızın tarixi yadigarı olan Yelisey məbədi, Həsənriz məbədi və digər abidələrdə alban yazıları silindi. Həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdıldı. Yelisey məbədində saxlanılmış Alban hökmdarı III Vaçaqanın qəbri və sövməsindəki yazı tamamilə məhv edildi.

# II FƏSİL
# ERMƏNİ İŞĞALI NƏTİCƏSİNDƏ ÖLKƏMİZƏ VƏ XÜSUSİLƏ QARABAĞA DƏYMİŞ MADDİ-MƏNƏVİ ZİYANLAR

## 2.1. İşğal nəticəsində əhaliyə dəymiş maddi-mənəvi ziyanlar, etnik təmizləmə

İşğalçı qonşularımız olan ermənilərin tarixən torpaqlarımıza olan əsassız ərazi iddiaları 1988-ci ildə özünün kulminasiya nöqtəsinə çatdı. Dağlıq Qarabağa uzadılan əllər ilk öncə münaqişəyə, daha sonra müharibəyə çevrildi. Bunun nəticəsi olaraq, 90-cı illərin əvvəllərində Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20% ərazisi işğal edildi. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri Azərbaycan üçün çox ziddiyyətli sayılırdı.



**Şəkil 2.1. Birinci Qarabağ müharibəsindən görüntü**

Cəmiyyətdə idarəetmə səviyyəsinin aşağı düşməsi, Dağlıq Qarabağda ermənilərin açıqca separatçı fəaliyyəti, Moskvanın dəstəyi ilə Qərbi Azərbaycan torpaqlarından – indiki Ermənistan ərazisindən soydaşlarımızın kütləvi surətdə qovulması vəziyyəti daha da ağırlaşdırırdı. 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb.

Bu hadisəyə, o cümlədən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə Azərbaycan xalqının etiraz erməsi, ona qarşı 1990-cı ilin yanvarında Sovet qoşunlarının yeridilməsinə, Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında kütləvi qırğınlarla səbəb olmuşdur.

## 2.2. İşğal nəticəsində Qarabağın dağılmış və talan olunmuş tarixi-mədəni irsi

Azərbaycanın işğal edilmiş ərazilərində 400-dən çox tarixi abidə olub ki, onların yarısı erməni vandalizmi nəticəsində dağıdılıb, yarısı isə erməniləşdirilib.

Ermənilər işğal etdikləri ərazilərdə yerləşən Azərbaycan xalqının əsrlərlə yaratdığı, müasir dövrdə isə bütün bəşəriyyətin tarixi mədəni irsi sayıla biləcək abidələrə qarşı vandalizm hərəkətləri törədiblər. Bu vandalizm hərəkətlərinin qalıqları bu günə qədər davam etmişdir.

Laçın rayonunun işğalından sonra Laçın şəhərində Güləbird, Malıbəy, Zeyvə, Soltanlar, Seyidlər, Kosalar və digər ərazilərdə 40-dan çox heyvan fiqurları, üzərində yazılar və rəsmlər olan 35-dən artıq sal daşlar, qəbirüstü daşlar dağıdılmışdır. Baxımsız vəziyyətə salınmış bu fiqurlardan bəziləri isə bu ərazidən daşınıb aparılmışdır. Sarı Aşıq türbəsi, Soltan baba məbədi, Dəmirovlu pir məbədi və digər sayda abidələr dağıdılmışdır. Laçın Tarix-Diyarşünaslıq Muzeyində, Şəkil Qalereyasında, bölgənin gerçək tarixini əks etdirən mənbə və abidələr məhv edilmiş, qiymətli eksponatlar talanmış və bir hissəsi satılmışdır.

Ermənilər tərəfindən "erməniləşdirilməyə" məruz qalan alban xristian abidələri sırasında Laçın rayonunun Kosalar kəndi yaxınlığında yerləşən Ağoğlan məbədinin (IV əsr) adı xüsusi qeyd edilməlidir:

"Tədqiqatlar göstərir ki, 2006-cı ildə ABŞ-ın Kaliforniya ştatında yerləşən müxtəlif erməni terror-siyasi təşkilatlarının ianələri hesabına məbədin üzərində xeyli işlər aparılmış, abidənin üzərinə təmir etmək bəhanəsi ilə 26 ədəd erməni dilində yazıların yazıldığı daş lövhələr yerləşdirilib. İşğal nəticəsində Kəlbəcər rayonu ərazisində 11 alban məbədi, 5 qala, 3 məscid, 5 ziyarətgah, 17 məbəd və s.

tarix və memarlıq abidələri işğalçıların əlinə keçib. XII əsrə aid Urek məbədi, Hatəm Məlik qalası, XII əsrə aid Yegiş Aragel məbədi bu abidələr sırasında xüsusən qeyd edilməlidir. Erməni vandalizminin üzərində dəyişikliklər apardığı ən mühüm abidələrdən biri isə Kəlbəcər rayonunun Vəngli kəndində yerləşən Gəncəsər monastrı (XIII əsr) olmuşdur. Xristian alban türkü Həsən Cəlalın hökmranlığı dövründə inşa edilmiş monastrın daxilində işğaldan sonra boyama işləri aparılmış, ermənicə yazılar həkk olunmuşdur. Abidənin xarici divarlarındakı alban izlərinin silinməsi üçün isə onun üzəri daş piltələrlə örtülmüşdür. Bu vandalizm aktına hətta bir sıra ermənilərin özləri də etiraz etmişlər. 2013-cü ilin iyununda bununla bağlı 350 nəfər erməni Ermənistan rəhbərliyinə müraciət ünvanlamışdı".

Bundan başqa, Qubadlı rayonu ərazisinin işğalı nəticəsində 2 mağara, 2 məbəd, 8 məscid, 1 mağara ibadətgah, 7 türbə, 10-a qədər ocaq və pir, 2 imamzadə, 6 qala və s. tarixi abidələr düşmən vandalizminə məruz qalıb. Uzun bir tarixi dövr ərzində bu abidələr baxımsızlıq ucbatından təbii və antropogen amillərin təsiri altında yüksək dərəcədə sıradan çıxmışdır.

Cəbrayıl rayonunda Sultan Allahverdi hamamı, Xudayarlı türbələri, Şıxlar kəndindəki dairəvi türbə (XIV əsr) ciddi dağıntılara uğradılıb. Araz çayı üzərindəki tarixi Xudafərin körpüsünün dağıdılması üçün müxtəlif vasitələrə əl atılıb. Zəngilan rayonu ərazisində yerləşən Hacallı dairəvi bürcü, Şərifan sərdabəsi (XIII əsr), Məmmədbəyli türbəsi (XIV əsr), Yenikənd sərdabəsi (XIV əsr) də erməni təcavüzünə məruz qalıb.

Ağdam rayonu ərazisində qədim tarixə malik çoxsaylı tarixi-memarlıq abidələri - Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Sarı Musaoğlu günbəzi (XIV əsr), Kəngərli kəndindəki XIV əsrə aid türbə və daş abidələr, Papravənddəki Xanoğlu türbəsi (XVII əsr), Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş türbə (XIX əsr), Şahbulaq qalası və s. kimi tarixi-memarlıq abidələri işğalçılar tərəfindən dağıdılıb.

İşğala məruz qalmış Xankəndi, Xocavənd və Xocalı rayonlarında da tarixi abidələrə qarşı vandalizm hərəkətləri törədilib.

İşğaldan azad olunmuş **Ağdam və Fizuli rayonları** ərazisinə və Qarabağın göz nuru olan **Şuşa şəhərinə** etdiyim səfərlər və orada apardığım tədqiqatlar barədə aşağıda bəhs olunmuşdur.

**AĞDAM**

İşğaldan azad edilmiş Ağdam rayonu ərazisində qədim yaşayış məskənlərindən olan **Üzərliktəpə yaşayış məskəni** yerləşir. Bu yaşayış məskəninin tarixi qədim Albaniya dövrünə qədər gedib çatmaqdadır. İdeal Nərimanov tərəfindən araşdırılan bu yaşayış məskənində qədim yaşayışın izlərinə dair qalıqlar aşkar edilmişdir. Hal-hazırda qorunması məqsədi ilə süni yaradılmış çəpərlərlə mühafizə olunur.



**Şəkil 2.2. Üzərliktəpə**

Ağdam rayonu ərazisində düşmən vandalizminə məruz qalmış tikililərdən biri də, məşhur **"Ağdam Çörək muzeyi"** dir.



**Şəkil 2.3. Ağdam,Çörək muzeyi**

Ağdamda dünyada ikinci çörək muzeyinin açılması fikrini ilk dəfə 1982-ci ildə Ağdam Rayon Partiya Komitəsinin katibi olmuş Sadıq Murtuzayev demişdir. Muzey ilk qonaqlarını bir il sonra - 1983-cü il noyabrın 25-də qəbul etmişdir. Çörək Muzeyinin yerləşdiyi dəyirman XIX əsrin sonlarında rayonda adlı-sanlı nəsildən olan Məhəmməd Qarayev tərəfindən inşa etdirilib.

Dəyirman mədəniyyət abidəsi kimi dövlət tərəfindən qorunub. Kompleksə karvansara da daxil olub. Sovet illərində **"Dəyirman həyəti"** adlandırılan bu ərazidəki karvansara yaşayışa uyğun hala gətirilib və yerli sakinlərin istifadəsinə verilmişdir. 1987-ci ildə dəyirman tam işlək vəziyyətə gətirilmiş hesab olunur.

Çörək muzeyinin sağ tərəfində o vaxt üçün məşhur olan "Sünbül kafesi" olmuşdur. Təəssüflər olsunki erməni vandalları təkcə tarixi abidələri deyil, həmçinin yaxınlığında yerləşən obyekt və tikililəridə yararsız hala gətirib, məhv etmişdir. Muzeylər, tarixi abidələr, obyektlər, heykəllərlə yanaşı burada məktəblərdə dağıdılmış, tikintisində istifadə olunan hərşey daşınaraq aparılmışdır.

Ağdamda **birinci şəhidlər xiyabanı** adlandırılan xiyaban yerləşir (şəkil ). 30 ilə yaxın müddətdə bu bölgə də, vandallığa məruz qalmışdır. Burada həm Ağdam şəhidləri, həmdə Xocalı şəhidləri dəfn olunmuşdur. Ərazi işğaldan azad edildikdən sonra qəbirlər yararsız hala düşsə də, onların yaxınları, ailələri çürümüş dəmir başdaşılardan qəbirlərin kimə aid olduğunu tapmışdırlar (şəkil ).



**Şəkil 2.4. Ağdam, Şəhidlər xiyabanı**

Hal hazırda ərazi dövlət tərəfindən qorunur. **Allahverdi Bağırov, Canpolad Rzayev, Yaqub Rzayev, Rövşən Ağayev, Adil Ağayev** və digər igid Azərbaycan oğulları ilə yanaşı, azyaşlı uşaqlar, yaşlı nəsil soydaşlarımızda bu xiyabanda dəfn olunmuşdur. Buraya səfər edən Ağdam sakinləri, itirdikləri yaxınlarının qəbri başında kədərlərini saxlaya bilməsələr də, qürur hissi ilə 30 il sonra yenidən bu torpaqlarda olmağın sevincidə üzlərində təbəssümlə həkk olunur.



**Şəkil 2.5. Ağdam,Şəhidlər xiyabanında dağıdılmış baş daşı**



**Şəkil 2.6. Ağdam, Şəhidlər xiyabanı**

**İmarət kompleksi** Ağdamda yerləşən və dağıntıya uğramış digər bir məkandır (şəkil 2.7.). Stadionun Stadionun girişində yerləşən, yaşı 100 ilə yaxın olan ağac kəsilmiş və gövdəsinə məhlul tökülərək yandırılmışdır. Sanki geridə qalan 30 ildə bitkilərlə belə vuruşmuşdurlar. Stadionun sağ tərfində imarət qəbristanlığı yerləşir (şəkil 2.9.). Bu qəbristanlıqla yanaşı, aralarında Xurşudbani Natəvanın da abidəsi olmaqla, 7 şəxsin qəbirüstü abidəsi olmuşdur (şəkil 2.8.). Təəssüflər olsunki bu abidələr 30 il ərzində dağıdılmışdır (şəkil 2.10. – 2.11.).



**Şəkil 2.7. İmarət**

İmarətin tarixi XVII əsrin sonlarından başlayır. Vaxtilə burada Xurşidbanu Natəvan yaşayıb. Qarabağ xanlarının cıdır meydanlarından biri də burda yerləşirmiş. Sonralar cıdır meydanının yerində Ağdamın mərkəzi stadionu inşa edilib. Stadiona hamı **"İmarət"** deyirdi.



**Şəkil 2.8. Dağıdılmış qəbir üstü abidə**



**Şəkil 2.9. İmarət qəbristanlığı**





**Şəkil 2.10. İmarət kompleksinin daxili görünüşü**

**Şəkil 2.11. İmarət kompleksinin daxili görünüşü**



**Şəkil 2.12. Qara bəyin evi adlandırılan Uşaq muğam məktəbinin binası**

Ağdam rayonunun əsas mədəniyyət ocaqlarından olan **Ağdam Dövlət Dram Teatrının** binası 1955-1956-cı illərdə tikilmişdir (şəkil 2.13). Hal-hazırda şəkildədə gördüyünüz kimi yalnız binanın fasadının bir hissəsi qalıb. Teatrın binasının önündə hovuz olmuşdur. Bu hovuzun ortasındad Nizami Gəncəvinin **"Xosrov və Şirin"** poemasından **"Fərhad Bisutun dağını çapır"** heykəli olmuşdur. Lakin bu heykəldən əsər əlamət qalmamışdır.



**Şəkil 2.13. Ağdam,Dram teatrı**

## Qutlu Musa türbəsi

Kür-Araz çayları arasındakı inşaat, xüsusilə XIV əsrin başlanğıcında daş türbələrin geniş şəkildə yayılması ilə əlamətdardır. Bu abidələrdən biri nadir təsadüf edilən səciyyəyə malik türbədir.

Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən bu abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülmüşdür. Bu abidənin əsas məziyyəti onun həcmində deyil, bu ənənəvi quruluşun özünəməxsus olmasındadır.



**Şəkil 2.30. Qutlu Musa türbəsi**

“**Xaçındərbətli** abidəsində yeraltı hissənin varlığı onun qülləvari türbələr qrupuna daxil edilməsinə əsas verən başlıca bir əlamətdir. Abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin və istərsə də xaricindəki səthlərin işlənməsi binaya təkrarolunmaz bir fərdi xüsusiyyət verir. Xaçındərbətli abidəsinin giriş qapısı üzərində olan kitabə, 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Qutlunun məzarı üzərində tikildiyini göstərir”[2] [səh 12].

---

[2] İŞĞAL ALTINDAKI TARİXİ-DİNİ ABİDƏLƏRİMİZ Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 96 səh .

## ŞUŞA ŞƏHƏRİ

**Şuşa şəhərinin** əsası 18-ci əsrin ortalarında qoyulmuşdur. Mənbələrə görə, Qarabağ xanı Pənahəli xan hücumlardan qorunmaq üçün 1750-ci illərdə Bayat və Şahbulaq adlı qalalar tikdirsə də, bu qalalardan heç biri xanlığı daimi müharibələrdən qoruya bilmirdi.



**Şəkil 2.14. Şuşa,dağıdılmış ev**

Qarabağ tarixini araşdıran Azərbaycan tarixçiləri yazırlar ki, dəniz səviyyəsindən 1300-1600 m. hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verdiyindən, Pənahəli xan şəhəri elə burda salır.

Şəhər əvvəlcə onun şərəfinə Pənahabad adlandırılsa da, sonralar Şuşa çağrılıb.

Qarabağ xanlığı Rus-Fars müharibəsi nəticəsində Araz çayının şimalındakı digər xanlıqlarla birlikdə 19-cu əsrin əvvəllərində Rusiya imperiyasına birləşdirilib.

Azərbaycanda Sovet dövlətinin ilk illərində 1921-ci ildə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirilib.

**Şuşa** ən əsası burada yerləşən **Cıdır Düzü** qədim dövrdən bir çox festivalların, ənənəvi oyunların keçirildiyi bir məkan olmuşdur.

Şuşa şəhəri təbiətinə görə və müalicə əhəmiyyəti baxımından Sovet illərindədə kurort şəhəri hesab olunurdu.

Burda kilsə və məscidlər (Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa, Seyidli və s.), karvansaralar, muzeylər vardır.

Şuşa teatrının tarixi 19-cu əsrin axırlarından başlayıb. Azərbaycanın Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Əbdürrəhim bəy Haqverdiyev,Xan qızı Xurşudbanu Natəvan, Həmidə xanm Cavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalıları, sənətçiləri əslən Şuşadandırlar.

XX əsrin əvvəllərindən Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşanı **"Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və ya "Zaqafqaziyanın konservatoriyası"** adlandırılıb.

Şəhərdə Sovet dövründə tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki fəaliiyət göstərib.

Şəhər işğal olunana kimi orada onlarla muzeylər, bir neçə orta və ali təhsil müəssisələri, məktəblər və kitabxanalar olmuşdur. Təəssüflər olsun ki, hal-hazırda burada digər işğal olunmuş rayonlarda olduğu kimi, bir çox obyektlər ziyan görmüş və ya təmamilə dağıdılmışdır.

Dağıdılmış obyektlər arasında Xan qızı Natəvanın ev muzeyidə vardır. Şəkildə göründüyü kimi, binanın fasad hissəsi xaricində hər şey dağıdılmışdır (şəkil 2.15.).



**Şəkil 2.15. Xurşudbanu Natəvanın evinin son vəziyyəti**



**Şəkil 2.16. Xurşudbanu Natəvanın evi**

**Xurşidbanu Natəvanın evi** Şuşanın ilk zamanlarında inşa edilmiş mülklərindən biridir. 1932-ci ildə Bülbülün təşəbbüsü ilə Şuşa Musiqi Məktəbi yaradılır.Və bu məktəb Azərbaycanda il Uşaq Musiqi məltəbi idi. Məktəb Xan qızı Natəvanın evi olmuş binada fəaliyyətə başlamışdır (şəkil 2.16.).

1987-ci ildə binada restavrasiya işləri aparılmış və Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin filialı olan **"Xurşidbanu Natəvanın ev-muzeyi"** fəaliyyətə başlamışdır.

2021-ci il iyunun 15-də Şuşa şəhərində **Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamə** məhz bu binanın qarşıında imzalanmışdır.

**Xan qızı Natəvanın sarayı** qarşısında eyni adlı bulaq yerləşir (şəkil 2.17.). Bu bulağın fəaliyyəti torpaqlar işğaldan azad olunana qədər dayanmışdır, lakin torpaqların işğaldan azad olunmasından sonra, **2021-ci il 12 may** tarixində Cənab Prezident İlham Əliyevin Şuşaya səfəri zamanı açılışı olmuşdur. Hal-hazırda bulaq işlək vəziyyətdədir.



**Şəkil 2.17. Xan qızı Bulağı**

Şuşa qalasının məşhur **“Gəncə qapısı”** (şəkil 2.18.**).** Bu qapı həmçinin **"Çiləbörd Qapısı"**da adlandırılırdı.

Pənahəli xanın hakimiyyəti dövründə inşa edilmiş bu qapı, artıq XVIII əsrdən etibarən Gəncə qapısı və ya Çiləbörd qapısı adlandırılırdı. Buna səbəb Şuşa qalasının bu qapıdan çıxan yolu bu şəhəri Gəncə şəhəri və Qarabağ xanlığının Çiləbörd mahalı ilə birləşdirməsi idi.




**Şəkil 2.18. Şuşa qalasının Gəncə qapısı**

İşğaldan azad olunduqdan sonra burada **Şuşa yazısı** yenisi ilə əvəz olunmuş, qala divarının dağıdılmış hissəsi yenidən bərpa olunmuşdur.

İşğaldan ziyan görmüş abidələrə dini ibadət yerləri də daxildir. Bunlara **Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Seyidli məhəlləsində yerləşən Seyidli məscidi, Şuşanın mərkəz Kilsə və s. aiddir.**

**Yuxarı Gövhər Ağa məscidi** şəhərin mərkəz hissəsində, **Aşağı Gövhər Ağa məscidi** isə bu məscidlə üz-üzə bir qədər aralıda yerləşir (şəkil 2.19.). İki məscidi bir-birindən fərqləndirən, birinin aşağıda digərinin yuxarıda olması ilə yanaşı həmçinin həcmləri və minarələrinin tikilmə üslubudur. **Yuxarı Gövhər Ağa məscidi** az ziyan görsə də, **Aşağı Gövhər Ağa məscidi** üçün bunu demək çətindir (şəkil 2.20.). Şəkildə də göründüyü kimi məscidin divarı dağıdılmış, minarəsi zədələnmişdir.





**Şəkil 2.19. Yuxarı Gövhər ağa məscidi** **Şəkil 2.20. Aşağı Gövhər ağa məscidi**

**Seyidli məhəlləsi (Seyidli məscidi)** Digər bir dini abidə olan **Seyidli məscidindən** bəhs edərkən, bu məscidin yerləşdiyi Şuşanın məşhur Seyidli məhəlləsindən də bəhs etmək yerinə düşər (şəkil 2.21.).



**Şəkil 2.21. Şuşa,Seyidli məscidi**

Məhəllədə məscid, kiçik bulaq, meydan yerləşir. Bu məhəllə Bununla yanaşı, Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən olan **Cabbar Qaryağdıoğlunun evi** də bu məhəllədə yerləşir (şəkil 2.22.). Şuşada XVIII əsrdə salınmış aşağı məhəllələrdən hesab olunur. 30 ilə yaxın işğal müddətində dövründə abidələr ciddi ziyan görsə də, hal hazırda **"Şuşa Şəhəri Dövlət Qoruq İdarəsi"** tərəfindən qorunmaqdadır.





**Şəkil 2.22. Şuşa,Cabbar Qaryağdıoğlunun evi**

Şuşada hər kəs bir birini ləqəblə tanıyardı:

***Hambaloğlu Hüseyn***

***Hambaloglu Dayandur***

***Faytonçu Şahlar***

***Qaraçı İsmayıl***

***Çarıqçı Musa***

***Keçəçi oğlu Məhəmməd***

***Kor Mahmud və başqaları.***



**Şəkil 2.23. Heydər Əliyev və Dağ İsmayıl**

Bu ağsaqqal Şuşalıların yaxşı tanıdığı Dağ İsmayıldır. Kəndin zarafatcıl,deyib gülən, sayılıb seçilən ağsaqqallarından biri idi.

Onun, Ulu Öndər Heydər Əliyevlə maraqlı söhbətləri olmuşdur.

Bu şəkil 1982-ci il iyul ayının sonları, avqust ayının əvvələrində həmin vaxt Azərbaycan KP MK-nın birinci katibi olmuş Heydər Əliyevin Dağlıq Qarabağ Muxtar Vilayətinə səfəri zamanı Şuşada çəkilib (Şəkil ).

Heydər Əliyevin böyük ehtiramla görüşdüyü bu ağsaqqal şuşalıların daha yaxşı tanıdığı Dağ İsmayıldır (əsl adı:İsmayıl Alışov).

İsmayıl kişinin Heydər Əliyevlə ilk görüşü 1982-ci ildə Molla Pənah Vaqifin məqbərəsinin açılışı ərəfəsində olmuşdur. Heydər Əliyevin rayon sakinləri ilə görüşündə Dağ İsmayıl ona yaxınlaşaraq evinə qonaq dəvət edir (şəkil 2.24.):

- Yoldaş Əliyev, bunlar sizə  yaxşı yemək verməyəcəklər, qazanımız ocağın üstündədir, gedək qonağımız olun.

Heydər Əliyev ağsaqqalın təklifini "maraqla" qarşılayıb, Dağ İsmayılla ayaqüstü bir neçə dəqiqə söhbət edib və sonda ona təşəkkürünü bildirib.

Həmin il Şuşaya yenidən səfər edən Heydər Əliyev rayon sakinləri ilə görüşəndə Dağ İsmayılı xəbər alır və onun evinə gedir. Səhhətində müəyyən problemlər olan İsmayıl kişi ikinci dəfə Heydər Əliyevlə görüşür.

Heydər Əliyev İsmayıl kişi ilə çox mehriban görüşərək hal-əhval tutur, onun problemləri ilə maraqlanır, bir xahişinin olub-olmadığını ondan soruşur. Dağ İsmayıl minnətdarlığını bildirirərək xahişini dilə gətirir:

- Yoldaş Əliyev, hər şey qaydasındadır, heç bir problemimiz yoxdur, sizdən yalnız bir xahişim var. O göydəki kişiyə deyin ki, Əzrayılı dalımca bir az gec göndərsin...

Heydər Əliyev Dağ İsmayılın xahişinə təbəssümlə cavab verir:

- İsmayıl kişi, mən o kişinin işinə qarışa bilmərəm...



**Şəkil 2.24. Dağ İsmayılın evinin  yerləşdiyi yer**

Şəkildəki ev, bir zamanlar Dağ İsmayıla məxsus olan evdir. Təəssüf ki, evdən əsər əlamət qalmayıb. Bu ev həmçinin Seyidlər məhəlləsinin yuxarısında yerləşirdi.

Şuşa şəhərində yenidənqurma işləri surətlə davam edir, buna tarixi abidələrin bərpası ilə yanaşı, köhnə evlərin oxşarının tikilməsi də aiddir.

**Vaqifin məqbərəsi**

Görkəmli Azərbaycan şairi və siyasi xadimi **Molla Pənah Vaqifin** türbəsi Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşanın cənub-qərbində, məşhur Cıdır düzündə, şairin həlak olduğu qayalı təpədə ucaldılıb (şəkil 2.25.).




**Şəkil 2.25. Molla Pənah Vaqifin məqbərəsi**



**Şəkil 2.26. Məqbərəsi ilkin vəziyyəti əks olunmuş bölmə**

Molla Pənah Vaqif şair kimi könüllərdə hər zaman taxt qurmuşdur. Lirik, aşiqanə şeirləri dillərə düşüb. O həm də görkəmli siyasi xadim kimi yalnız vəziri olduğu Qarabağ xanlığında deyil, bütün Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda tanınıb. Dövrünün mürəkkəb, ziddiyyətli ictimai-siyasi hadisələrinə düşən ömrü faciəylə bitib. Molla Pənah Vaqif oğlu ilə birlikdə qətlə

yetirilmişdir. Tarix onun nə şairlik məharətini, nə də siyasətdə olan bacarığını heç zaman unutmayıb.

1967-ci ildə Heydər Əliyev Şuşada olarkən Vaqifin məzarını ziyarət etmək istəyib. Yeri məlum olmayan məzar onun göstərişi ilə tapılıb. Ulu Öndər bərbad halda olan, dağılmış məzarı ziyarət etmiş və çıxışlarının birində gördüyü bu məzarın Vaqifə layiq olmadığını söyləmişdir . Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə abidə və türbə tikintisi aparılmışdır.

Türbə işğal dövründə olarkən təmamilə yararsız hala gətirilmişdir. Tikilinin işləmələri dağıdılmış, məzarın üstü və məzarın arxasında yerləşən hissədə həkk olunmuş Molla Pənah Vaqifin büstü dağıdılmışdır. Şuşanın işğaldan azad olunması ilə yeni həyata qovuşan türbənin, **2022 – ci ilin 29 avqust** tarixində təmir-bərpa işlərindən sonra yenidən açılışı oldu (şəkil 2.26.). Tikili hal hazırda tam bərpa olunub. Qarşıında əvvəlki tikiliyə aid naxışların müəyyən hissəsi, şairin şəkilləri və işğaldan öncəki və sonraki vəziyyətinə dair şəkillər yerləşdirilmişdir (şəkil 2.27.).




**Şəkil 2.27. Vaqifin məqbərəsinin ilkin vəziyyəti**

**Bülbülün ev muzeyi.**

SSRİ Xalq artisti Bülbülün 1992- ci ilə qədər Şuşada yerləşən ev-muzeyi onun Bakı şəhərindəki memorial muzeyinin filialı idi. Ev-muzeyi kiçik həyət, iki otaq və eyvandan ibarətdir. Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyəti haqqında nadir, çox qiymətli sənədlər burada nümayiş olunurdu.

Muzeyin fasadında heykəltəraş Xanlar Əhmədov tərəfindən bürüncdən hazırlanmış, uşaqlıq illərinin portretini əks etdirən memorial lövhə vurulmuşdur.

Ermənistan Silahlı Qüvvələri Şuşa şəhərini işğal etməsi nəticəsində 6 mindən artıq eksponatı məhv edilmiş və aparılması mümkün olanlar isə Ermənistana daşınmışdır. Bülbülün erməni vandalları tərəfindən dağıdılmış – güllələnmiş heykəli hal-hazırda muzeyin  qarşısında yerləşməkdədir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olmuş, professional vokal məktəbinin təkamülündə mühüm rol oynamış Bülbülün avqustun 29-da Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olmuşdur (şəkil 2.28.).



**Şəkil 2.28. Bülbülün ev muzeyi**



**Şəkil 2.29.**



**Şəkil 2.30.**




**Şəkil 2.31. Bülbülün güllələnmiş heykəli**

Dağıdılmış heykəl olduğu kimi qalaraq, qarşısında yenisi yaradılmışdır (şəkil 2.31.). Hal-hazırda Bülbülün ev muzeyinə əslən Şuşalı olan Fəxrəddin Hacıbəyli başçılıq edir.

Buraya ziyarət edən vətəndaşlara muzeyin əhəmiyyəti, dağıdılmış vəziyyətdə olan fotolar barədə məlumat verilir. Muzeyin daxilində, Bülbülün repertuarında musiqilər səsləndirilir. Rəy kitabına insanlar Şuşa haqqında xoş təəsüratlarını həkk edir, bununla da Şuşaya kiçik bir xatirə buraxmış olurlar.

## III FƏSİL
## ERMƏNİ İŞĞALININ BEYNƏLXALQ ARENADA TANINMASI VƏ BEYNƏLXALQ HÜQUQDA QİYMƏTLƏNDİRİLMƏSİ

### 3.1. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri

**BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il 822 saylı Qətnaməsində** qeyd olunurdu ki, ilk olaraq dayanaqlı atəşkəsin əldə olunması üçün bütün hərbi əməliyyatlar və digər düşmənçilik aktları dayandırılmalı, işğalçı qüvvələr Kəlbəcərdən və Azərbaycanın zəbt olunmuş rayonlarından çıxarılmalıdır. Maraqlı tərəflər münaqişəni sülh yolu ilə həll etmək üçün danışıqları bərpa etməli və problemin sülh yolu ilə həll olunmasına qarşı çıxacaq hər hansısa bir hərəkətə yol verməkdən çəkinməlidir.




**Şəkil 3.1. BMT**

Regionda həmçinin münaqişənin toxunulduğu rayonlarda mülki əhalinin əzab-əziyyətlərinin azaldılması üçün aparılan humanitar yardımın göstərilməsinə aid olan beynəlxalq fəaliyyətin maneəsiz keçməsini təmin edilməsinə qarşı çıxılmamalı və tərəflərin Beynəlxalq Humanitar Hüququn prinsiplərinə və normalarına əməl olunmasının məcburiliyi qeyd olunmalıdır. Baş Katibdən hazırda

fəaliyyətdə olan ATƏT-in və Minsk qrupunun sədrlərinin məsləhəti ilə regionda və həmçinin Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyət qiymətləndirilməli və sonradan Şuraya məruzə edilməlidir.

**BMT-nin Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il 853 saylı Qətnaməsi** Ağdam rayonu və Azərbaycanın işğal olunmuş digər torpaqlarının zəbtini pisləməklə yanaşı regionda düşmənçilik hərəkətlərini, həmçinin mülkü əhaliyə olan hücumlar və yaşayış rayonlarının bombardman edilməsini, atəşinə tutulmasını pisləyir. Bütün hərbi əməliyyatların təxirəsalınmazdan dayandırılmasını, təcili, tam və danışıqsız olaraq Ağdam və Azərbaycanın işğal olunmuş digər rayonlarından münaqişədə iştirak etmiş silahlı qüvvələrinin çıxardılmasını tələb edir. Tərəfləri razılaşmaya gəlməyə və bu razılaşmaya əməl etməyə çağırır. Tərəflər münaqişənin sülh yolu ilə həll olunmasına qarşı hər hansı bir hərəkətdən çəkinməyə, Minsk qrupu çərçivəsində danışıqların aparılmasına, həmçinin münaqişənin son həllinə yönəlmiş birbaşa əlaqələri davam etməyə çağırır. Ermənistan Respublikasının Azərbaycanın Dağlıq Qarabağ regionun ermənilərinin 822-ci (1993) və indiki qətnamələrin əməl etməsini təmin etməyə və bu tərəfin Minsk qrupunun təkliflərini qəbul eləməsinə çağırır.

**BMT-nin Təhlükəsizlik Şurasının 14 oktyabr 1993-cü il tarixli 874 saylı Qətnaməsi** Tərəfləri atəşkəsin effektlisini və daimiliyini, Minsk qrupuna dəstək olaraq Rusiya Federasiyasının yardımı ilə birbaşa əlaqələrin yaradılmasını təmin etməyə çağırır. Özünün ATƏT və Minsk qrupunun yorulmaz əməyi çərçivəsində əldə olunan sülh prosesini dəstəklədiyini bir daha bəyan edir və 28 sentyabr 1993-cü ildə Minsk qrupunun yığıncağında qəbul edilmiş və Sədr tərəfindən maraqlı tərəflərə təqdim edilmiş «822 və 853 Qətnamələrinin həyata keçirilməsi ilə əlaqədar təxirə salınmaz tədbirlərin yeniləşmiş qrafikini» bəyənir, tərəflərə onu qəbul etməsini məsləhət görür və buna çağırır.

**BMT-nin Təhlükəsizlik Şurasının 14 oktyabr 1993-cü il tarixli 884 saylı Qətnaməsinə** görə isə Hərbi əməliyyatın başlanmasına səbəb olan tərəflərin atəşkəsin son pozulmasını, o cümlədən Zəngilan rayonu və Horadiz şəhərinin zəbtini, mülki əhaliyə hücumu və Azərbaycan Respublikası ərazisinin atəşə

tutulmasını qətiyyətlə pisləməklə yanaşı, Ermənistan hökumətini Azərbaycanın Dağlıq Qarabağ regionun ermənilərinə öz təsirindən istifadə edərək 874, 853 və 822 saylı Qətnamələrə riayət etməsinə və hərbi kampaniyaların davam etməməsi üçün vəsaitlərin verilməməsini təmin etməyə çağırır. ATƏT-in Minsk qrupunun 9 nəfərinin bəyanatını məmnuniyyətlə qeyd edir və orada göstərilən atəşkəs haqqında birtərəfli bəyanatı yüksək qiymətləndirir. Zəngilan rayonu və Horadiz şəhərindən və digər işğal olunmuş rayonlardan çıxarılmasını tələb edir.

1994-cü ilin mayında əldə edilmiş atəşkəs rejimindən sonra Dağlıq Qarabağ məsələsinin həlli üçün nəzərdə tutulmuş vaxtın və vəsaitin meyar və ölçülərinin əvvəlcədən müəyyənləşdirilməsi mümkün deyildi. Bu səbəbdən hesab etmək olar ki, münaqişənin 30 ilə yaxın bir müddəti əhatə etməsi əvvəldən qoyulmuş uzaqgörən və məqsədyönlü siyasətin addım-addım nəticəsidir. Bütün bu proseslərin nəticəsi kimi tarixi məqamın yetişdiyi bir dönəmdə: 2020-ci ilin sentyabrın 27-dən başlayaraq, Ermənistanın Azərbaycana növbəti hərbi təcavüzünə cavab olaraq, Ali Baş Komandan, Prezident İlham Əliyevin komandanlığı altında Azərbaycan Silahlı Qüvvələri uğurlu əks-hücum əməliyyatları keçirərək, Vətən uğrunda müharibəyə başlamışdı. Göründütü kimi, aparılan qətiyyətli siyasət və uzunmüddətli hazırlıqdan sonra Dağlıq Qarabağ probleminin həllində dönüş baş vermiş və nöqtə deyi, nida işarəsini qoymaq zamanı yetişmişdi.

Bu müddətdə baş verənlərlə bağlı ölkənin qeyri-hökumət təşkilatları bütün qüvvələrini səfərbər edərək fəaliyyətini Vətən müharibəsinin tələblərinə uyğun təşkil etmişdi. Döyüş əməliyyatlarının ilk günündən etibarən, QHT-lər Milli Ordunun Ermənistanı sülhə məcburetmə əməliyyatlarına çevik və adekvat ictimai dəstək vermişdi. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası QHT-lərin bununla bağlı bütün təşəbbüslərinə təşkilati, texniki və digər zəruri dəstək göstərirdi. Sentyabrın 27-də 1128 qeyri-hökumət təşkilatı xalqa müraciətində Ali Baş Komandana və Orduya tam dəstəyini ifadə etmişdi. Bütün QHT rəhbərləri Vətən müharibəsinə töhfə vermək üçün əlindən gələni edəcəyini, həmçinin əmr veriləcəyi təqdirdə qəhrəman Milli Ordunun sıralarında düşmənə qarşı vuruşmağa hazır olduğunu bildirmişdi.

Yüzlərlə QHT beynəlxalq təşkilatlara, dünya ölkələrinin prezidentləri və Xarici İşlər nazirlərinə, beynəlxalq ictimai qurumlara müraciət və bəyanatlar göndərmişdi. QHT-lərin fərdi və kollektiv formada imzaladığı bu bəyanat və müraciətlər müxtəlif dillərdə müvafiq qurumların elektron ünvanları ilə yanaşı, onların sosial media hesablarına da ünvanlanmışdı. Ancaq təəssüflər olsun ki, kiçik istisnaları çıxmaq şərtilə beynəlxalq təşkilatlar Ermənistan Respublikasının həyata keçirdiyi dövlət terroruna, mülki vətəndaşları və infrastrukturu hədəfə alaraq beynəlxalq hüququn norma və prinsiplərini pozmasına açıq və birmənalı reaksiya verməkdən çəkinirdi. Müraciət göndərilən beynəlxalq təşkilatların sırasında BMT-nin Baş katibi, BMT Təhlükəsizlik Şurası, ATƏT-in fəaliyyətdə olan sədri, ATƏT PA-nın prezidenti və başqaları olmuşdur.

## 3.2. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Qarabağ münaqişəsi

Azərbaycanın bu beynəlxalq quruma üzv olması 1992-ci ilə təsadüf edir. Həmin il yanvar ayının 30-da Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirəyə üzv olan Azərbaycan iyulun 8-də ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında təşkilatın sənədlərini imzaladı. 1992-ci ilin fevralında ATƏM-in ilk missiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə hazırlamaq üçün respublikamıza gəldi. Fevral ayında missiyanın məruzəsi təşkilatın Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən iclasında dinlənildi. Məruzədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olması faktı təsdiqlənirdi. Komitə münaqişənin həllinə dinc vasitələrlə nail olmağın zəruriliyini də bəyan etmişdi. 1992-ci ilin mart ayında ATƏT-in nümayəndələri ikinci dəfə regiona səfər etdilər və bu dəfə də YVŞK-nın iclasında məruzə dinlənildi və komitə yenidən tərəfləri Dağlıq Qarabağa dair sülh konfransının keçirilməsinə şərait yaratmağa çağırmaqla kifayətləndi. Martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası vəziyyəti müzakirə edərək münaqişənin sülh yolu ilə nizamlanmasını təmin etmək üçün YVŞK-nin zəmanəti əsasında Dağlıq Qarabağa

dair sülh konfransının çağırılması barədə qərar qəbul etdi. Bununla da Minsk prosesinin əsası qoyulmuş oldu. 1994-cü ilin dekabrında Budapeştdə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunan ən mühüm qərarlardan biri təşkilatın Avropada sülhün və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində fəaliyyətinin genişləndirilməsi oldu. Sammitin ən vacib hadisələrindən biri də ATƏM-in təşkilati cəhətdən yeniləşməsi və onun fəaliyyətinin genişləndirilməsi məqsədilə qurumun 1995-ci ilin yanvar ayının 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı adlandırılması idi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1992-ci ildən etibarən ATƏT-in diqqət mərkəzində saxladığı əsas məsələlərdən biri olmuşdur. Bu təşkilat münaqişənin həlli prosesində vasitəçilik missiyasını öz üzərinə götürmüş və bu istiqamətdə müəyyən irəliləyişlər əldə olunması üçün bir çox mühüm addımlar atmışdır. Lakin hələ ki, ATƏT münaqişənin nizamlanması üçün konkret nəticələr əldə etməyə nail ola bilməmişdir. 1992-ci il mart ayının 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaranmış vəziyyəti müzakirə edərək münaqişənin sülh yolu ilə nizamlanmasını təmin etmək üçün Yüksək Vəzifəli Şəxslər Komitəsinin zəmanəti əsasında Dağlıq Qarabağa dair sülh konfransının çağırılması barədə qərar qəbul etdi. Konfransda ABŞ, Türkiyə, Fransa, Almaniya. İtaliya, Çexiya-Slovakiya, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı nəzərdə tutulmuşdu.

1992-ci ilin mayında ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsi tərəfindən konfransın təşkili və iclasın keçirilməsi şərtləri, eləcə də sədrin səlahiyyətlərini müəyyənləşdirən qərar qəbul olundu. Minsk Konfransının keçirilməsi üçün yaradılan Minsk qrupu münaqişənin həlli prosesində iştirak etməli və nəticədə Belarusun paytaxtında yekun sənəd qəbul olunmalı idi. Bu zaman Ermənistan tərəfi Dağlıq Qarabağ ermənilərinin konfransda ayrıca tərəf kimi iştirakını nəzərdə tutan təkliflə çıxış etdi, lakin Azərbaycan tərəfi buna razı olmayaraq Dağlıq Qarabağ ermənilərinin yalnız Azərbaycan nümayəndə heyətinin tərkibində konfransa qatılmasının mümkünlüyünü bildirdi. 1992-ci ilin mayında Helsinkidə

ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası keçirildi və burada Azərbaycan, Türkiyə və Ermənistan nümayəndələri bəyanatla çıxış etdilər. Azərbaycan təcavüzkarın cəzalandırılmasını, Ermənistanın işğalçılıq əməliyyatlarına son qoymasını tələb etsə də, əks tərəfin mövqeyi onun belə bir addım atmağa hazırlaşmadığını ortaya qoydu. Beləliklə də görüşdə heç bir nəticə əldə olunmadı. May ayında isə ermənilər hərbi əməliyyatları genişləndirərək Şuşa və Laçını da işğal etməyə nail oldular.

1992-ci ilin 1 iyununda Romada Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar prosesinin ilkin mərhələsi start götürdü. ABŞ, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya. Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən bu görüş iyunun sonlarında açılması nəzərdə tutulan Minsk Konfransına hazırlıq məqsədi daşıyırdı. Ermənistan tərəfi Dağlıq Qarabağın erməni nümayəndələrinin də görüşə qatılmasında israr edirdi. Belə olan təqdirdə Azərbaycan tərəfi də Dağlıq Qarabağın azərbaycanlı icmasının görüşdə iştirak etməsi barədə təklif irəli sürdü. Bundan sonra Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələri Romaya gəlməkdən imtina etdilər. Onlar danışıqlarda müstəqil tərəf kimi iştirak etmək istədiklərini bildirdilər və bu da bir daha ermənilərin sülhə hazır olmadığını ortaya qoydu. Lakin buna baxmayaraq görüş baş tutdu və qəbul olunmuş sənədlərdə Laçından və Şuşadan qoşunların çıxarılması, qaçqınların yerlərinə qaytarılmasının təmin edilməsi barədə müddəalar öz əksini tapdı. İyunun 15-də Romada danışıqların ikinci mərhələsi başladı. Bu görüşdə isə ermənilər Türkiyənin danışıqlardan kənarlaşdırılması tələbini irəli sürdülər. Onlar eyni zamanda Goranboy və Ağdərədə Azərbaycanın apardığı hərbi əməliyyatlar haqqında bəndlərin də sənədlərə əlavə olunmasını təklif etdilər. Bu təklif Azərbaycan tərəfinin etirazı ilə qarşılandı və danışıqlarda heç bir nəticə əldə olunmadı.

Həmin görüş zamanı tərəflərə atəşin 60 gün müddətində dayandırılması barədə müraciət qəbul olundu. Ermənistan bu müraciətə də əməl etmədi. Avqust ayında Minsk Konfransının sədri Mario Raffaelli atəşin dayandırılması haqqında təkliflə regiona səfərə gəldi. Təklif tərəflərə təqdim olundu və Azərbaycan onu

qəbul etdiyini bildirdi. Həmin təklifə görə, tərəflər atəşin dayandırılmasına dərhal razılaşmalı və bundan sonra cəbhə xəttinə müşahidəçilərin ilkin qrupu yerləşdirilməli idi. Avqustun 27-də Azərbaycan, Qazaxıstan və Ermənistan nümayəndələri birgə bəyanatla çıxış edərək ATƏM-in Minsk Konfransının təklifini alqışladıqlarını bildirdilər. Sentyabrın 3-də İcevan protokolu imzalandı. Bu saziş atəşin dayandırılması haqqında təklifin müddəalarının yerinə yetirilməsini nəzərdə tuturdu.

1993-cü ildə Minsk qrupuna üzv dövlətlərin iştirakı ilə münaqişənin həllinə dair növbəti görüş keçirildi. Burada tərəflər cəbhə bölgəsinə müşahidəçilər göndərilməsini razılaşdırdılar. Danışıqlar çox gərgin keçsə də Ermənistanla Azərbaycan arasında sazişin imzalanması baş tutdu. Görüşdə belə bir qərar qəbul edildi ki, atəşin dayandırılması müddətləri və ATƏM-in müşahidəçilər missiyasının işə başlaması, eyni zamanda sülh danışıqlarının sənədləri barədə saziş imzalamaq üçün Minsk qrupunun aprel ayında görüşü keçirilsin. Tərəflərin imzaladığı saziş ATƏM YVŞK-nın iclasında müzakirə olunmalı və təsdiqlənməli idi. Lakin bütün bunlar hələ münaqişə tərəfləri arasında ümumi razılığın əldə olunması demək deyildi. Çünki atəşin dayandırılması və Minsk Konfransının açılması məsələsi həll edilməmiş qalmaqda davam edirdi. Bu görüşdən sonra nizamlama prosesinin proqressiv xarakter alacağına böyük ümidlər yaranmışdı. Lakin aprel ayında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər rayonunu işğal etməsi sülhün əldə edilməsinə yaranan ümidləri puça çıxartdı. Azərbaycan yenidən dünya dövlətlərinə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın işğalçılıq siyasətinə qiymət verməyi xahiş etdi.

1993-cü il avqustun 9-da ATƏM-in Minsk qrupu münaqişə tərəfləri ilə məsləhətləşmələrə başladı və "Təxirəsalınmaz tədbirlər cədvəli"ni yenidən müzakirə etdi. Ermənistanın sənəddə nəzərdə tutulmuş bəzi planlara etirazından sonra cədvəlin yeni variantı hazırlandı. Bu, "Təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantı kimi təqdim olunurdu. Əslində isə yeni variant tamamilə Ermənistanın iddiaları və təklifləri əsasında qurulmuşdu. Belə ki, burada ATƏM müşahidəçilərinin Azərbaycan ərazisində yerləşdirilməsi nəzərdə tutulur,

Ermənistanla sərhəd rayonlarda isə yalnız 10 kilometrlik məsafənin nəzarətdə saxlanılacağı göstərilirdi. Azərbaycan bu sənədə qəti etirazını bildirərək onu qəbul etmədiyini Minsk qrupu üzvlərinin diqqətinə çatdırdı. Bundan sonra artıq ATƏM-in münaqişənin həlli üçün heç bir real mexanizmlərə əl atmamasından və beynəlxalq ictimaiyyətin laqeyd münasibətindən istifadə edən Ermənistan Azərbaycanın Qubadlı, Cəbrayıl və Füzuli rayonlarını da ələ keçirdi.

2003-cü ilin sonuna qədər danışıqlar prosesi o qədər də fəal keçməmişdi. Bunun əsas səbəblərindən biri Azərbaycanda və Ermənistanda keçiriləcək prezident seçkiləri ilə bağlı idi. Seçkilərdən sonra isə danışıqlar yenidən fəallaşmağa başladı. 2003-cü ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Prezidenti R.Koçaryan arasında ilk görüş keçirildi. Bu görüş əsasən tanışlıq xarakteri daşıyırdı və onun əsas nəticələrindən biri bundan ibarət oldu ki, hər iki tərəf danışıqları davam etdirməyə hazır olduğunu və prosesin daha intensiv şəkil almasına çalışacağını bəyan etdi. Azərbaycan və Ermənistan prezidentlərinin aprelin 28-də Varşavada keçirilən görüşü də bəzi mühüm məqamlara görə böyük əhəmiyyətə malik idi. Əvvəla, hər iki dövlət başçısı danışıqların davam etdirilməsi imkanlarının tükənmədiyini və bu istiqamətdə addımların davam etdiriləcəyini bildirdi. Digər tərəfdən, görüş zamanı Xarici İşlər nazirlərinin birbaşa danışıqların intensiv olaraq davam etdirilməsi qərara alındı. Qeyd edək ki, prezidentlərin iki görüşü arasındakı zaman məsafəsində baş vermiş bəzi mühüm dəyişikliklər danışıqların indiki məzmunu barədə bəzi mülahizələr yürütməyə imkan verir. Məsələ burasındadır ki, bu müddət ərzində ABŞ-ı ATƏT-in Minsk qrupunun tərkibində Azərbaycanla isti münasibətlərə malik yeni həmsədr - Stiven Mənn təmsil etməyə başladı. Bu, vaxtilə Azərbaycan Prezidentinin də söylədiyi kimi, ABŞ-ın münaqişənin həllində daha fəal rol oynamaq niyyətinin təzahürü kimi qiymətləndirilir. Daha bir vacib məqamı da nəzərdən qaçırmaq olmaz ki, Ermənistan Prezidentinin ilk görüşün keçirildiyi dövrdəki vəziyyəti ilə indiki durumu arasında olduqca ciddi fərqlər meydana çıxıb. Ölkə daxilində ciddi siyasi böhran yaşanmaqdadır və R.Koçaryan müxalifətin təzyiqləri qarşısında çox böyük çətinliklə davam gətirir. Yeri gəlmişkən, elə o özü də görüş ərəfəsinə

təsadüf edən bəyanatlarının birində Ermənistandakı durumu xəyanət kimi qiymətləndirmişdir.

44 gün davam etmiş müharibə müddətində və ondan sonra da Azərbaycan rəhbərliyi Minsk qrupunun fəaliyyətini tənqid edib. Prezident İlham Əliyev ötən ilin dekabrında ölkəyə gəlmiş ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərkən onlara demişdi ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb və Ermənistanı Azərbaycan ərazilərindən çıxmağa vadar edə bilməyib.

Azərbaycan Xarici İşlər Nazirliyinin son bəyanatlarından birində isə vurğulanıb ki, ATƏT-in Minks qrupu üçtərəfli bəyanatların icrasını dəstəkləməklə bölgədə sülh və inkişafın təmin olunmasına töhfə verə bilər.

### 3.3. Dəmir yumruq əməliyyatı, Qarabağa qayıdış və zəfərdən sonra Qarabağın inkişaf perspektivləri

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində həmin tarixdən, noyabrın 9-dək 286 kənd, 5 şəhər və 4 qəsəbə işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun 90 kəndi, Füzuli şəhəri və Fizuli rayonunun 53 kəndi, Zəngilan rayonu, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bununla bərabər 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və onun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Qarabağın incisi olan Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər, Zəngilanda isə Bartaz, Sığırt və Şükürataz yüksəklikləri və adsız digər yüksəkliklər azad olundu.

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik olan, Qarabağın tacı sayılan Şuşa şəhərini

işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə, böyük Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirirdi.

Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə, Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 22-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.

Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

"Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib:"[3] "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" [4]

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın

[3] İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciəti,
[4] ***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2021-ci il dekabrın 21-də Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfəri zamanı hərbi hissənin açılışında İkinci Qarabağ müharibəsinində Qələbəni şərtləndirən əsas amillərdən biri kimi diqqətə çatdırdı ki, Hadrutdan sonra Şuşaya yolumuz açıldı və Hadrut işğalçılardan azad edilməsəydi, Şuşaya gedib çatmaq daha çətin olacaqdı.

Müharibə günlərində cəbhədən aldığımız qələbə xəbərlərinə sevindiyimiz kimi, sonrakı dövrdə də çoxsaylı layihələrə start verilməsi və onların başa çatdırılması barədə məlumatları da eyni duyğular ilə qarşılayırıq. Qarabağda və Şərqi Zəngəzurda gerçəkləşdirilən dövlət əhəmiyyətli layihə və proqramalara, çoxyönlü tədbirlərə Prezident İlham Əliyev birbaşa özü rəhbərlik edir və burada aparılan işləri yaxından izləyir.

Dövlət başçısının bildirdiyi kimi: *“Müharibə başa çatandan dərhal sonra bütün bu işlərə start verildi. Çox böyük həcmli bir işdir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq. Çünki mənfur düşmən torpaqlarda hər şeyi, bütün binaları dağıdıb. İndi bunu bütün xarici qonaqlar da görürlər. Öz gözləri ilə erməni vəhşiliyini görürlər. Bu, misli görünməmiş vəhşilikdir. Dünya tarixində bir çox müharibələr olub. Ancaq bu qədər qəddarlıq, bu qədər düşmənçilik, məncə, dünya müharibə tarixində olmayıb. Hətta İkinci Dünya müharibəsi ilə müqayisə etsək, o vaxt belə vəhşiliyə yol verilmirdi, dini abidələr dağıdılmırdı”.*

Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi, erməni faşizminin bu ərazilərdə yerlə-yeksan etdiyi şəhər və kəndlərimizin ən qısa zamanda bərpası, yenidən qurulması, buraya qayıdışın tezliklə təmin edilməsi üçün azad edilən ərazilərdə geniş həcmdə tikinti-quruculuq, abadlıq işləri görülüb, ərazilərin minalardan təmizlənməsi, lazımi infrastrukturun yaradılması diqqət mərkəzində saxlanılır. Ötən il noyabrın 16 -da başlanan təməlqoymalar elektirk enerjisi, avtomobil və dəmir yolları infrastrukturlarında, hava limanlarında genişmiqyaslı

tikinti işlərinə rəvac vermişdir. Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdır.

Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. Bu fond xalqımızın və dövlətimizin Qarabağı dirçəldib gülüstana çevirmək amalının və əzminin canlı timsalı kimi imkanlarını və prosesə köməyini gündən-günə artırır (şəkil 3.2.).

Xatırlamaq lazımdır ki, təcavüzkar Ermənistan 30 il işğal altında saxladığı Azərbaycan ərazilərini başdan-başa xarabazara çevirdiyi kimi, II Qarbağ savaşının davam etdiyi 44 gündə cəbhə bölgəsində dinc əhalinin yaşadığı şəhər və kəndlərdə də irimiqyaslı dağıntı və təlafatlar törətmişdir. Bütün bu cinayətlərin irimiqyaslı dağıntılarla nəticələnməsinə baxmayaraq, müharibə Azərbaycanın qələbəsi ilə başa çatan gündən təmas xəttinə yaxın bölgələrdə və işğaldan azad edilmiş ərazilərdə zəruri bərpa-quruculuq işlərinə start verilmişdir.



**Şəkil 3.1. Xurşudbanu Batəvanın güllələnmiş heykəli**



**Şəkil 3.2. Üzeyir Hacibəyovun güllələnmiş heykəli**

Erməni vəhşiliyi nəticəsində savaş günlərində 9 rayonda 2 min 442 yaşayış evi, 92 çoxmərtəbəli yaşayış binası və 423 mülki obyekt dağıdılmışdı. Ümumilikdə, 11 şəhər və rayon ərazisində 12 mindən artıq obyektə baxış keçirilmiş, operativ qiymətləndirmə və təmir-tikinti işləri aparılmışdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı ölkə Prezidentinin verdiyi tapşırıqları rəhbər tutaraq, insanların ən qısa müddət ərzində doğma şəhər və qəsəbələrində əvvəlki həyata qayıtması üçün bütün zəruri resurslarını səfərbər etmiş və bütün rayon və şəhərlər üzrə tikinti, təmir-bərpa işləri qısa müddətdə başa çatdırılmışdır.

Qarabağa böyük Qayıdışın yolu kommunikasiyaların bərpasından və işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri aparılmasından keçir. Lakin düşmən ölkənin hərbi quldur dəstələrinin 30 il müddətində Qarabağı mina və partlamamış sursat məzarlığına çevirməsi məcburi köçkünlərin öz yurdlarına dönüşünü ciddi surətdə əngəlləyir, irimiqyaslı layihələrin sürətlə gerçəkləşdirilməsinə mane olur.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin son məlumatına görə, qələbədən sonrakı 1 ildə azad edilmiş ərazilərdə minaya düşmə nəticəsində 30-dək mülki şəxs həlak olmuş, 40-dək mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Rəsmi statistikaya görə, ümumilikdə, Azərbaycanda 2,5 min nəfər müharibənin təhlükəli partlayıcı qalıqlarından zərər çəkmiş, onlardan 388 nəfər ölmüş və 2 min 60 nəfər yaralanmışdır.

Ölkəmizin işğaldan azad edilmiş ərazisində hazırda Milli Minatəmizləmə Agentliyi və Türkiyə hərbi istehkamçıları, ermənilər yaşayan hissədə isə Rusiya Müdafiə Nazirliyi minatəmizləmə işlərini sürətlə davam etdirirlər. Bu prosesin uğurla aparılması Qarabağda kommkunikasiyaların bərpa edilməsinə və quruculuq işlərinə daha geniş meydan açır. Ərazilərin minalardan daha tez təmizlənməsi isə müvafiq xəritələrdən istifadə edilməsindən asılıdır.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin müvafiq açıqlamasında bildirilir ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra ötən il Ermənistan işğaldan azad edilmiş ərazilərin minalanmış sahələrinin formulyarlarını ölkəmizə təqdim mişdir. Ermənistan tərəfi müvafiq beynəlxalq məhkəmə işləri çərçivəsində məsuliyyətdən yayınmaq məqsədi ilə, guya, bütün mina sahələrini əhatə edən formulyarların verildiyini iddia etsə də, bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir və ciddi problemlər yaradır.

Ermənistanın daha öncə Ağdam, Füzuli və Zəngilan rayonları üzrə verdiyi mina sahələri üzrə məlumatların dəqiqliyi, ən yaxşı halda, 25 faizdir. Müdafiə Nazirliyi və ANAMA nın apardığı təhlil və emal işləri isə göstərir ki, verilmiş xəritələr yenə də minalanmış bütün əraziləri tam əhatə etmir və gerçək vəziyyəti düzgün əks etdirmir.

Minalardan təmizləmə işləri uğurla davam etdikcə yeni ərazilər bərpa və quruculuq meydanına çevrilir. Minalardan təmizləmə işlərinin necə zəruri, mürəkkəb və çətin bir proses olduğunu anlamaq üçün ANAMA-nın son məlumatlarından birinə nəzər salaq. Təkcə mart ayının ilk 4 günündə Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə

əməliyyatları zamanı piyada əleyhinə 25, tank əleyhinə 39 mina və 36 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilimiş, nəticədə, 129,8 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənmişdir.

Bu ilin fevral ayında Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 96, tank əleyhinə 63 mina və 601 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilmiş, cəmi 379,6 hektar ərazi ölüm təhlükəsindən xilas edilmişdir. Son 4 ayda isə azad edilmiş ərazilərdə piyada əleyhinə 10 min 600, tank əleyhinə 4 865 mina və 14 045 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilmişdir. Bununla, 7 min 560 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Azad edilmiş ərazilərdə iş aparılacaq sahələr isə yüz min hektarlara çatır və onların ölümsaçan vasitələrdən təmizlənməsinə aylar deyil, illər tələb olunur.

Şuşada **“Xarı Bülbül” otel və “Qarabağ” otel** kimi turizmin inkişafına töhfə verəcək obyektlər tikilir (şəkil 3.3.).

İşğaldan azad edilmiş ərazilərdə və keçmiş təmas xəttində irimiqyaslı minatəmizləmə işləri ilə yanaşı, əsas infrastruktur layihələri də sürətlə gerçəkləşdirilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan çoxşaxəli və irimiqyaslı bərpa-quruculuq işlərini Prezident Administrasiyasında yaradılmış qərargah operativ olaraq əlaqələndirir. Burada aparılan işlərə cəlb edilmiş xidmət və istehsal qurumları da iş üstündə öz qərargahlarını yaratmışlar. Dövlətimizin başçısı tərəfindən Qarabağda müəyyənləşdirilən tapşırıqların icrası ilə yerində tanış olmaq, müxtəlif dövlət qurumlarının həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, tikinti, bərpa, quruculuq və abadlaşdırma işlərinin gedişatına ciddi nəzrət edilir. Bu, əsasən, layihələrin icrasını sürətləndirmək, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq məqsədi daşıyır.



**Şəkil 3.3. Qarabağ otel**

Məlumat üçün bildirək ki, azad edilmiş ərazinin elektrik təchizatı ötən ilin sonuna qədər başa çatdırılmışdır. Kommunikasiyalar boyunca yeni elektrik xətləri çəkilmiş, yeni yarımstansiyalar tikilmişdir. Şuşa şəhəri 2020-ci ilin aprel ayından elektrik enerjisi ilə tam təmin edilmişdir. Daşkəsəndən isə Kəlbəcərə Murov dağlarından yeni ötürücü xətlər çəkilmişdir. Yol infrastrukturunun yaradılması ilə bağlı bütün istiqamətlər üzrə əsaslı layihələrə start verilmiş, işlər sürətlə davam etdirilir.

İlk növbədə, Füzuli–Şuşa istiqamətində yeni magistral çəkilmiş, Horadiz–Zəngilan, Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Bərdə–Ağdam, Göygöl–Toğanalı–Kəlbəcər avtomobil yollarının tikintisi də sürətlə davam etdirilmişdir. Bununla yanaşı, Bərdə–Ağdam və Horadiz–Zəngilan–Ağbənd dəmir yolu infrastrukturu da əsaslı surətdə bərpa edilir. İşğal ərazisində ölkəmizə vurulan ziyanın hesablanması ilə yanaşı, şəhərlər üzrə, ilk olaraq, Ağdamın bərpası, və kəndlərdə birinci pilot layihə olan Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən ilk "Ağıllı kənd" layihələrinin icrasına başlanmışdır.

Digər şəhərlərin də baş planları hazırlanmışdır. Kəndlərin bərpasına gəldikdə isə işlər mərhələlərlə aparılır, əvvəlcə mövcud infrastruktura yaxın olan kəndlər

dirçəldilir. Dövlət başçısının Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı müvafiq göstərişləri yerinə yetirilməkdədir.

Füzuli Beynəlxalq Hava Limanının tikintisi sürətlə aparılmış və Zəngilan rayonunda da yeni hava limanının tikintisinə start verilmişdir. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa edilir. Zəngəzur dəhlizinin açılması isə Qarabağla bağlı həyata keçirilən müxtəlif yönlü layihələrin zəruri davamı olacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Bu, bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Ötən 1 il 5 ayda böyük Qayıdışa ilkin hazırlıq layihələri uğurla yerinə yetirilmişdir. Qarabağda qələbəmizin rəmzinə çevrilmiş yeni Zəfər yolu sürətlə çəkilmiş. Ötən ilin Novruz günlərində bu yolla Şuşaya getmiş Prezident İlham Əliyev Cıdır düzündə bayram tonqalı yandırmış, şənliyi ailəsi ilə burada keçirmişdir. İki ay sonra Füzulidə istifadəyə verilmiş və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı gətirmiş təyyarənin ilk enişi ilə fəaliyyətə başlamış beynəlxalq aeroportun cəmi 8 ayda ərsəyə gəlməsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə nümayiş etdirdiyi güc və imkanın parlaq göstəricisi olmuşdur.

Hal-hazırda Fizuli rayonu ərazisindən, Əhmədbəyli-Şuşa magistral yolunda aparılan işlər surətlə davam etdirilir. Fizulidən Şuşaya şəkilən zəfər yolu 9 aya tamamlanmışdır. Bu yol əsgərlərimizin 44 günlük vətən müharibəsində texnika yardımı və ən əsası piyada qalxdığı yollardan çəkilmişdir. Bu yolla hərəkət etdikcə insan, 30 ildir həsrətində olduğumuz torpaqlara geri dönmənin sevinci ilə yanaşı, hansı çətinliklərlə torpaqların azad olunmasının verdiyi qürur hissini də yaşayır.

Şuşaya qalxan yolun üstündə **Baharlı, Sığınaq** və s. Kimi kəndlərlə yanaşı, **Daşaltı əməliyyatının aparıldığı Daşaltı kəndi** də yerləşir (şəkil 3.4.).



**Şəkil 3.4. Daşaltı kəndi**

# NƏTİCƏ

Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Alban dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə Əərb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra IX – X əsrlərdə Şəddadilər, XII – XIII əsrlərdə Atabəy-Eldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər) dövlətlərinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur.

Hal-hazırdaAzərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin müvafiq açıqlamasında bildirilir ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra ötən il Ermənistan işğaldan azad edilmiş ərazilərin minalanmış sahələrinin formulyarlarını ölkəmizə təqdim etmişdir. Ermənistan tərəfi müvafiq beynəlxalq məhkəmə işləri çərçivəsində məsuliyyətdən yayınmaq məqsədi ilə, guya, bütün mina sahələrini əhatə edən formulyarların verildiyini iddia etsə də, bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir və ciddi problemlər yaradır.

Füzuli Beynəlxalq Hava Limanının tikintisi sürətlə aparılmış və Zəngilan rayonunda da yeni hava limanının tikintisinə start verilmişdir. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa edilir. Zəngəzur dəhlizinin açılması isə Qarabağla bağlı həyata keçirilən müxtəlif yönlü layihələrin zəruri davamı olacaq. Prezident İlham Əliyevin dediyi kimi: “Bu, bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq”.

Bunları nəzərə alaraq Qarabağda işlərin necə surətli davam etdiyini deyə bilərik. Əhmədbəyli-Şuşa magistral yolunun çəkilməsi, Qarabağa daha tez və təhlükəiz çatmağa şərait yaradacaq. Yeni iş imkanları və turizm mərkəzi olaraq Şuşa, Kəlbəcər, Hadrut və digər işğaldan azad olunmuş rayonların inkişafı da qaşınılmazdır.

Müharibə günlərində cəbhədən aldığımız qələbə xəbərlərinə sevindiyimiz kimi, sonrakı dövrdə də çoxsaylı layihələrə start verilməsi və onların başa çatdırılması barədə məlumatları da eyni duyğular ilə qarşılayırıq. Qarabağda və Şərqi Zəngəzurda gerçəkləşdirilən dövlət əhəmiyyətli layihə və proqramalara, çoxyönlü tədbirlərə Prezident İlham Əliyev birbaşa özü rəhbərlik edir və burada aparılan işləri yaxından izləyir.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


**Azərbaycan dilində:**

1. Əliyev.H “Müstəqilliyimiz əbədidir” ,Bakı, “Azərnəşr” , 2002
2. “Burdan bir atlı keçdi”. Vasif Quliyev – Bakı-2017
3. Dağlıq Qarabağ münaqişəsi: mənşəyi, sülhməramlılıq və vətəndaş cəmiyyətinin rolu. B.: “Elm və təhsil”, 2017.-151 s.
4. Əhmədova Səbinə. Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri). B.: “Ecoprint”, 2020.-218 s.
5. Qarabağ münaqişəsində Şuşanın yeri // “Hərbi bilik” jurnalı, Bakı,1997, № 3, s.64-67.
6. Qarabağ münaqişəsində Şuşanın yeri // “Hərbi bilik” jurnalı, Bakı,1997, № 3, s.64-67.
7. Qarabağ münaqişəsində Şuşanın yeri // “Hərbi bilik” jurnalı, Bakı,1997, № 3, s.64-67.
8. Şuşa: tarixi, siyasi, iqtisadi, strateji və mədəni əhəmiyyətə malik şəhər //“Geostrategiya” jurnalı, №5(9), may-iyun, 2012, s.35-39.
9. Şuşa - Azərbaycanın strateji əhəmiyyətli tarixi mədəniyyət mərkəzi //“Qarabağ dünən, bu gün və sabah” 11-ci Ümumrespublika elmi-əməli konfransın materialları, (22 may, 2012-ci il), Bakı, 2012, s.36-47.
10. Ermənistan-Azərbaycan münaqişəsi və ATƏT (I məqalə) //“Hərbi bilik” jurnalı, Bakı,1998, № 5, s.91-96
11. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamasalınmasına dair aparılan danışıqların mərhələləri //“Strateji təhlil” jurnalı, №6(7), aprel-iyun, 2013, s.63-83.
12. Şuşanın tarixi, siyasi və hərbi-strateji əhəmiyyəti //“Dirçəliş” jurnalı № 86-87,aprel-may, 2005, s.84-93.
13. Faiq İsmayılov, “Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar”, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2013, 98 səh.

14.Hikmət Cəmilzadə "Dağlıq Qarabağ şəxsiyyət ömründən səhifələr". Bakı-2004.

15.İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciəti.

16.İrfan Ülkü. Qızıl ulduzdan hilala doğru. Bakı, "Azərbaycan"

17.Mehriban Əbdülhəlim qızı Abbasova. BORÇALI TORPAQLARININ TARİXİ. – Bakı: Mütərcim, 2016. – [səh 388]

18.Nahid Məmmədov. İŞĞAL ALTINDAKI TARİXİ-DİNİ ABİDƏLƏRİMİZ Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 96 səh.

19.Rüstəm Məmmədov. "Azərbaycan Respublikasının tarixi və mədəniyyət abidələrinin beynəlxalq-hüquqi qorunması" , Bakı, 2013.

20."Şuşa Filialı", 2016. Şirin Məlikova.

21. Tahir AYDINOĞLU,"Xalq qəzeti" "Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri Böyük Qayıdışın zəruri təməllərini yaradır"

22.Qarabağ: dünən, bugün, sabah. Bakı, "Şuşa", 2002.

23. Ziyad Səmədzadə. Dağlıq Qarabağ: naməlum həqiqtlər. Bakı, "Vətən" , 1985, s. 24-28

24. Hidayət Orucov. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, "Qərb" , 2001, s. 48.

25. "Erməni vandalizmi: əsirlikdə olan Azərbaycan abidələri" "AzərTAc".- 2015.- 28 yanvar.

26. İsmayılov.F "Tarixi və mədəniyyət abidələrinin qorunması, istifadəsi və bərpası barədə təlimatlar" . 2013

27. İsmayılov.F "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi metodologiyası". 2014

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarına 1 nömrəli əlavə, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 9 yanvar 2015

29. "Qarabağ abidələri" Bakı, 22 aprel, AZƏRTAC

30. https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html
31. https://www.azerbaijan-news.az/az/posts/detail/ilham-eliyev-ermeni-vandalligini-ve-saxtakarligini-ifsa-edir-1644698429
32. https://az.trend.az/azerbaijan/politics/3540186.html
33. http://prokurorluq.nakhchivan.az/m%C9%99tbuat-xidm%C9%99ti/meqaleler/902-tarix-v%C9%99-m%C9%99d%C9%99niyy%C9%99t-abid%C9%99l%C9%99rini-m%C9%99hv-etm%C9%99-vandalizm-akt%C4%B1-v%C9%99-b%C9%99%C5%9F%C9%99ri-cinay%C9%99tdir.html
34. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyevin-dagliq-qarabag-probleminin-h%C9%99lli-ucun-atdigi-addimlar/
35. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/86132.htm
36. https://story.karabakh.center/az/heyder-eliyev-ve-1970-80-ci-illerde-qarabag-meselesi
37. http://www.geostrategiya.az/news.php?id=132
38. https://xalqqazeti.com/mobile/az/news/10557
39. https://president.az/az/articles/view/44435
40. https://herbiqenimetlerparki.az/az/page/veten-muharibesi/azerbaycan-respublikasinin-prezidenti-ali-bas-komandan-ilham-eliyevin-cixislari

**In the English language:**

41. Human Rights Watch (ed.), Bloodshed in the Caucasus: Escalation of the Armed Conflict in Nagorno Karabakh, Helsinki 1992, p. 32.
42. Indicators of Azerbaijan's dynamic development: successes and achievements. // //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal.- 2020.- № 3 (71), s.121-128. və s. 100-dən artıq elmi məqalə

43. Historic, political and military-strategic value of Shusha //Proceedings of the conferences held under the topic “Garabagh yesterday, today and tomorrow”. Second volume. Baku, 2009, p. 39-49.
44. H. Eakin, When an Enemy’s Cultural Heritage Becomes One’s Own, in: New York Times, Nov. 30, 2020
45. UNESCO (2015), “Destruction and desecration of Azerbaijani historical and cultural heritage resulting from the continuing aggression of the Republic of Armenia against the Republic of Azerbaijan”, available at: http://www.unesco.az/files/image/files/Destruction_of_ Azerbaijani_cultural_heritage.pdf (Accessed: 7 May 2021).
46. Ministry of Culture of the Republic of Azerbaijan (2020), “Gargabazar Mosque”, available at: http://mct.gov.az/en/commonnews/13331 (Accessed: 5 May 2021)
47. "Шуша - цитадель Карабаха: почему она важна для азербайджанцев и армян" [Shusha is the citadel of Karabakh: why is it important for Azerbaijanis and Armenians]. BBC Russian Service . 7 November 2020.
48. "Shusha Armenians recall their bittersweet victory". Institute for War and Peace Reporting. 10 May 2002.
49. Waal, Thomas. "Shusha Armenians Recall Their Bittersweet Victory". Institute for War and Peace Reporting. 10 may 2002.
50. Waal, Thomas (2003, 2013). Black Garden: Armenia and Azerbaijan through Peace And War. New York University Press, pp. 196-197.